Xalqın qəzeti!

# Xalq qəzeti

№ 174 (30290) 17 avqust 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

### Prezident İlham Əliyev:

Biz hər zaman beynəlxalq hüququn norma və prinsiplərini dəstəkləyirik. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək olmaz. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək istəyən ölkələr yalnız öz nüfuzunu itirəcəklər, çünki beynəlxalq hüquqda aydın şəkildə deyilir ki, ərazi bütövlüyü onun fundamental prinsipidir.

# Azərbaycan etibarlı yatırım məkanıdır



**Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində respublikada güclü iqtisadi potensial mövcuddur. Geniş müasir infrastruktur qurulması, yüzlərlə müasir müəssisənin fəaliyyətə başlaması da bunun nəticəsidir.**

Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzin formalaşması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır.

(ardı 8-ci səhifədə)

## Ölkəmizdəki diplomatik korpus təmsilçiləri Ağdamda



**Azərbaycanda akkreditə olunan diplomatik korpus üzvləri və hərbi nümayəndələr dünən Ağdama səfər ediblər. Heyətdə 45 ölkə və 12 beynəlxalq təşkilatdan 100-ə yaxın diplomat və hərbçi təmsil olunub. Səfər çərçivəsində xarici diplomatlar və hərbi nümayəndələr Ağdam–Xankəndi yolunun istifadəyə açıq olması barədə yerində məlumatlandırılıblar.**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev yol barədə qonaqlara məlumat verərək bildirib ki, tarixən geniş istifadə olunan bu mcarşrut Qarabağın dağlıq və aran hissələrini birləşdirir. Sovet dövründə Ulu öndər Heydər Əliyevin tapşırığı ilə bu yola paralel Ağdamdan Xankəndiyə qədər uzanan dəmir yolu xətti də inşa edilib.

(ardı 2-ci səhifədə)

## Yaşar Əliyev Ermənistan tərəfinin əsassız ittihamlarına tutarlı cavab verib

**Avqustun 16-da BMT Təhlükəsizlik Şurası ermənilərin yaşadığı Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranmış "humanitar böhran"ın müzakirəsi üçün təcili iclas keçirib.**




Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev iclasda çıxış edərək Ermənistanın davamlı dezinformasiyasından, beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyadan danışıb, Azərbaycan dövlətinin bu məsələ ilə bağlı mövqeyi barədə məlumat verib.

(ardı 6-cı səhifədə)

**Tərkibi əsasən ehtiyatda olan alman və fransız hərbçi-polislərindən ibarət Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyası ilə bağlı rəsmi İrəvanın daha bir təxribatı baş tutmadı.**

## Hayların daha bir təxribatı baş tutmadı

Söhbət avqustun 15-də Ermənistan Müdafiə Nazirliyinin missiyanın patrul aparan avtomobillərinin, guya, Azərbaycan hərbçiləri tərəfindən atəşə tutulması barədə hazırlanmış təxribatdan gedir. Hadisələrin xronoloji ardıcıllığına baxdıqda, bunun planlı təxribat olduğunu aydın görmək mümkündür.

Əvvəlcə, Ermənistanın Müdafiə Nazirliyi məlumat yayıb. Məlumatda bildirilib ki, həmin gün saat 12:20 radələrində Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca kəndi istiqamətində patrul aparan Aİ müşahidəçilərini və onların avtomobilini, guya, odlu silahlardan atəşə tutub. Qeyd olunub ki, ölən və yaralanan yoxdur.

Bundan sonra Aİ-nin missiyası tərəfindən hayların müdafiə qurumunun bu yalanı təkzib edilib. Missiyanın "X" sosial şəbəkəsində yaydığı məlumatda bildirilib: "Aİ-nin missiyasının heç bir patrulu atışmanın hədəfi olmayıb. Biz Ermənistan-Azərbaycan



sərhəd rayonlarında patrul xidməti həyata keçiririk və Brüsselə hərbi inkişaflar, o cümlədən məsuliyyət daşıdığımız ərazidə atışma insidentləri barədə məlumat veririk".

Ancaq üstündən bir neçə saat keçdikdən sonra missiya yeni açıqlama ilə çıxış edib. Həmin açıqlamada qurumun mövqeyi əvvəlkindən köklü şəkildə fərqlənib. Budəfəki açıqlamada deyilib: "Biz təsdiq edirik ki, Avropa İttifaqının Ermənistandakı missiyasının patrulu bizim məsuliyyət zonamızda baş verən atışma hadisəsi zamanı orada olub. Missiyanın heç bir üzvü zərər çəkməyib".

(ardı 4-cü səhifədə)

## BMT-dəki "erməni tamaşası" və vasitəçilik üçün təhdid

### *ABŞ, Rusiya və Avropa İttifaqı riyakarlığı, yoxsa səmimiyyəti seçir?*

**Hazırda tam qətiyyətlə demək mümkündür ki, Ermənistan rəhbərliyi, xüsusən də, xaricdəki ermənipərəst dairələr var gücləri ilə dünya ictimaiyyəti rəyinin Azərbaycan əleyhinə çevrilməsinə, bununla da beynəlxalq hüquq prinsiplərinin arxa plana keçməsinə, Qarabağın müstəqil quruluş kimi düşüncələrdə möhkəmlənməsinə çalışırlar. Bu, ikili standartlardan çıxış edən dünyanın köhnəki "metod"udur – əvvəlcə rəy yaratmaq, sonra qanunların həmin rəyə uğunlaşdırılmasına çalışmaq. Elə bu səbəbdəndir ki, beynəlxalq aləmdə qanunlar və hüquq normaları əxlaqın, indiki halda siyasi əxlaqın dalınca sürünməkdədirlər.**



Əslində, BMT Təhlükəsizlik Şurasında dünən Qarabağdakı humanitar vəziyyətə dair keçirilmiş müzakirə təşəbbüsü də qeyd etdiyimiz "metodun" leqallıq qazanmasına hesablanmışdı. Əsas o götürülmüşdü ki, Azərbaycana təzyiq göstərilsin və ölkəmiz mövqeyindən geri çəkilsin. Bəs, diqqətə çatdırdığımız "prosesdə" iştirak edən kimlərdir?

Ermənistan rəhbərliyi və xaricdəki ermənipərəst qüvvələrlə bağlı hər şey aydındır. Bu sıraya ənənəvi anti-Azərbaycan mövqeyi ilə seçilənləri də aid etmək mümkündür. Vasitəçi kimi üzərinə öhdəlik götürmüş tərəflər necə? Onların mövcud dolaşıq labirintdəki mövqeyi nədən ibarətdir? Nəhayət, onlar deyə bilirlərmi ki, BMT-də belə bir mənasız təşəbbüsü müzakirə etmək yersizdir. Bildirirlərmi ki, kənar meyillər vasitəçilik missiyalarına xələl gətirir? Xeyr, bildirmirlər.

(ardı 3-cü səhifədə)

## İqtisadi yüksəlişin strateji hədəfləri

**Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də hazırda bu müstəqil dövlətin dünyada sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin edən ölkə kimi tanındığı bildirilir.**



Strategiyada daha sonra respublikamızın beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artdığı, cəmiyyətdə dövlətçilik ənənələrinin gücləndiyi, müasir sosial-iqtisadi infrastruktur quruculuğunun uğurla həyata keçirildiyi vurğulanır. Sənəddə iqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanlarının uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə verdiyi, təhlükəsizliyin təmini üçün güclü potensial yaratdığı da qeyd edilir.

(ardı 7-ci səhifədə)

## "Azərbaycanın sərhəddə öz postunu qurmağa haqqı var"



**Erməni cəmiyyəti yalnız yekcins və monoton düşüncəli haylardan ibarət deyil. Fakta, beynəlxalq hüquqa, ən başlıcası isə reallığa və məntiqə əsaslanıb danışan ermənilər də var. Sayları hələlik az olsa da, onların səsi tez-tez sosial şəbəkədən, internet kanallardan, interaktiv platformalardan, xarici portallardan gəlir.**

Ermənistan–Azərbaycan münasibətləri, Qarabağ məsələsi ilə bağlı soyuq mühakimə yürütməyə üstünlük verən belələrindən biri İrəvan press-klubunun rəhbəri Boris Navasardyandır. "Caliber.Az" saytı onun "UKRLIFE.TV"yə müsahibəsində səsləndirdiyi, sağlam məntiqə söykənən mülahizələrini dərc edib. Mövzunun aktuallığını nəzərə alaraq, həmin müsahibənin bir hissəsini ekspert şərhi ilə birgə oxucularımıza təqdim edirik.

(ardı 4-cü səhifədə)

## ABŞ Ukrayna taxılına yeni yol açır

**Rusiya iyulda BMT və Türkiyənin vasitəçiliyi ilə Ukrayna taxılını Qara dənizdən keçirən gəmilərin mühafizəsini nəzərdə tutan "taxıl müqaviləsi"ndən çıxdı. O vaxtdan bəri Moskva Ukrayna limanlarına və taxıl infrastrukturuna hücumlarını artırıb. Rusiyanın hərbi gəmiləri və Qara dənizdəki hərbi-dəniz bazaları isə Ukraynanın hədəfinə çevrilib.**



(ardı 9-cu səhifədə)

## Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1.** 2005-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1988–2004-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2023-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 avqust 2023-cü il**

## Qax rayonunun Qax–Qaşqaçay–Armudlu (11 km)–Aşağı Malax–Qaşqaçay–Armudlu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İki min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Qax–Qaşqaçay–Armudlu (11 km)–Aşağı Malax–Qaşqaçay–Armudlu avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.7-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 4,9 milyon (dörd milyon doqquz yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 avqust 2023-cü il**

# Ölkəmizdəki diplomatik korpus təmsilçiləri Ağdamda






*(əvvəli 1-ci səhifədə)*

### Ağdam – Xankəndi yolu açıqdır

Prezidentin köməkçisi qeyd edib ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Prezident İlham Əliyevin tapşırığı ilə görülən ilk iş ərazidə dağıdılmış yolların yenidən çəkilməsi olub. Bu yollar Qarabağda ermənilərin yaşadığı ərazilərədək çəkilir. Azərbaycan Ermənistan istiqamətində də dəmir və avtomobil yollarını bərpa edir. Bu, onu göstərir ki, ölkəmiz ermənilər kimi yollarda divar və maneələr qurmur, onu ikitərəfli gediş-gəliş üçün hazır vəziyyətə gətirir.



Azərbaycan rəhbərliyi Ağdam–Xankəndi yolunu Qarabağın erməni sakinlərinin ölkəmizin siyasi, sosial, iqtisadi və mədəni həyatına inteqrasiyasının tərkib hissəsi hesab edir. Bu yol inteqrasiyaya xidmət etməklə yanaşı, nəqliyyat imkanları baxımından daha sərfəlidir. Yol, yüklərin Azərbaycanın əsas hissəsindən Qarabağa çatdırılması ilə yanaşı, Qarabağda yaşayan sakinlərin də Azərbaycanın əsas nəqliyyat-infrastruktur sisteminə çıxışını təmin edir.

Qonaqlara daha sonra məlumat verilib ki, Azərbaycan Qarabağdakı ermənilərə yüklərin, malların çatdırılması üçün Füzuli–Şuşa yolundan istifadə olunmasını da təklif edib. Beynəlxalq Qırmızı Xaç Komitəsinin humanitar yüklərinin bu yol vasitəsilə Xankəndiyə çatdırılması barədə avqustun 5-də razılıq əldə olunub. Bundan 24 saat sonra da Azərbaycanın sərhəd və gömrük rejimi qaydalarına riayət olunmaqla Laçın–Xankəndi yolunun da açılması nəzərdə tutulurdu. Lakin bu imkandan istifadə etmək əvəzinə, erməni separatçıları həmin yolda beton sədlər quraşdırmağa başladılar. Bundan sonra isə Ermənistan Azərbaycanı, guya, Xankəndiyə gedən yolları bağlamaqda ittiham etməyə başladı. Prezident İlham Əliyev də Şuşa Qlobal Media Forumunda məsələyə aydınlıq gətirərək bildirdi ki, Ermənistan yolları bloklayır, Azərbaycan isə avtomobil və dəmir yollarını açır.

### Reinteqrasiya günün tələbidir

Diplomatlara bildirilib ki, reinteqrasiyaya alternativin olmadığını hesab edən Azərbaycan Qarabağ ermənilərini öz vətəndaşları kimi görür. Ölkəmiz onların hüquqlarını və öhdəliklərini öz Konstitusiyası əsasında təmin etməyə hazırdır. Lakin Ermənistan Azərbaycanın bu xoşməramlı addımlarına cavab olaraq, Qarabağda yaratdığı qondarma separatçı rejim vasitəsilə proseslərə mane olur. Eyni zamanda, bu, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlara və iki ölkə arasında münasibətlərin normallaşdırılmasına da mənfi təsir göstərir.

Ermənilər sülh danışıqlarını pozamaq üçün təxribatçı hərəkətləri davam etdirir, "humanitar böhran" şousu yaratmaqla beynəlxalq qarayaxma kampaniyası aparırlar, lakin bunun heç bir təsiri olmayacaq. Ermənistanın müraciəti əsasında bu məsələ BMT Təhlükəsizlik Şurasının iclasında müzakirəyə çıxarılır. 27 il ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar 4 qətnaməsi masa üzərində qalmışdı. BMT Təhlükəsizlik Şurası cəsarət tapıb Azərbaycanın torpaqlarının işğalını müzakirə edə bilməmişdi, amma bu gün Ermənistanın qaldırdığı məsələ müzakirəyə çıxarılır.

Xarici ölkə diplomatlarının nəzərinə çatdırılıb ki, Azərbaycan Qarabağın erməni sakinləri ilə reinteqrasiya məsələlərini müzakirə etmək üçün onları bir dəfə Bakıya, bir dəfə isə Yevlaxa dəvət edib. Təəssüf ki, Ermənistan qeyri-konstruktiv yanaşmasını davam etdirərək, bu dəvətlərdən imtina edib. Bütün bu mesajlar beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana çatdırılmalıdır. Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə verən tərəfdaşlar – Avropa İttifaqı, Rusiya, ABŞ da danışıqlar prosesində çətinliklə əldə edilmiş nailiyyətlərin Ermənistanın manipulyasiya əməlləri nəticəsində itirilməsinə imkan verməməli, münasibətlərin normallaşdırılması prosesinə, danışıqlara dəstək verməlidirlər.

Sonda vurğulanıb ki, Azərbaycan bu məsələlərin müzakirəsinin digər yerlərdə deyil, məhz burada aparılmasını vacib hesab edir. Ağdam – Xankəndi yolu istənilən humanitar yükün Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə çatdırılması, eyni zamanda, ehtiyac duyulan malların Azərbaycan ərazisindən daşınması üçün açıqdır və bu yüklər, mallar ən qısa zamanda Xankəndiyə çatdırıla bilər.




### Bərdə – Ağdam magistralı ilə tanışlıq

Ağdama səfər edən xarici diplomatik heyət Ağdam – Xankəndi yolunu Azərbaycanın mərkəzi hissəsi ilə birləşdirən Bərdə – Ağdam dəmir və avtomobil magistralının tikintisi işləri ilə tanış olublar. Qonaqlara hər iki yolun layihəsi və tikintisi ilə bağlı ətraflı məlumat verilib.

Bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən olan Bərdə – Ağdam avtomobil yolunun tikintisi yekunlaşmaq üzrədir. Başlanğıcını Bərdə şəhərindən götürən yolun uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolda qovşaqlar, körpülər, yeraltı keçidlər və digər qurğuların inşası tam başa çatdırılıb. Ümumilikdə, layihə üzrə nəzərdə tutulan işlərin 88 faizi icra edilib. Yolun tikintisinin yaxın müddətdə başa çatdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub.

Bərdə – Ağdam dəmir yolu xəttinin inşasına da 2020-ci ildə başlanılıb. Tikinti işlərinin bu ilin sonunadək başa çatdırılması planlaşdırılır. Xəttin yan yollarla birlikdə uzunluğu 57,9 kilometr, o cümlədən ox üzrə uzunluğu 47,1 kilometrdir. İndiyədək Bərdə – Ağdam dəmir yolu xəttinin layihələndirilməsi işlərinin 90, tikinti-quraşdırma işlərinin isə 70 faizi yerinə yetirilib. Xətt üzərində 56,9 kilometr uzunluğunda uzunölçülü relslər quraşdırılıb, mühəndis və digər qurğuların tikintisi başa çatdırılıb.



### Ağdam yenidən tikilir

Qarabağ iqtisadi zonasının hazırkı yol infrastruktur potensialı ilə əyani tanışlıqdan sonra qonaqlara 30 ilə yaxın davam etmiş işğal dövründə Ağdamda törədilən misilsiz dağıntılar haqqında ətraflı məlumat verilib. Onlar hazırda şəhərdə davam edən genişmiqyaslı quruculuq işləri ilə yaxından tanış olublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev diplomatik heyət üzvlərinə Ağdam şəhərinin Baş planı çərçivəsində həyata keçirilən quruculuq işləri barədə ətraflı məlumat verərək bildirib ki, Böyük Qayıdış proqramına əsasən, 2026-cı ilədək Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün 5 yaşayış məhəlləsi və rayonda 12 kənd tikiləcək.

Artıq şəhərdə Ağdam Konfrans Mərkəzinin və 1 nömrəli tam orta məktəbin tikintisi yekunlaşıb. İlk yaşayış məhəlləsinin, "Ağdam Residence" yaşayış kompleksinin, "City Hotel Agdam" mehmanxanasının, Ağdam Muğam Mərkəzinin, "Park Qarabağ" yaşayış kompleksinin tikintisi də həyata keçirilir. Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işləri yekunlaşmaq üzrədir. Rayonda iqtisadiyyatın, yerli istehsalın inkişafı məqsədilə sənaye parkı yaradılır.

Qeyd edilib ki, "Ruhlar şəhəri", "Qafqazın Xirosiması" kimi tanınan Ağdam Azərbaycan Prezidentinin diqqət və qayğısı ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı düşmüş insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.

***"Xalq qəzeti"***

# BMT-dəki “erməni tamaşası” və vasitəçilik üçün təhdid

## ABŞ, Rusiya və Avropa İttifaqı riyakarlığı, yoxsa səmimiyyəti seçir?

(əvvəli 1-ci səhifədə)

Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsinə, sülhün əldə edilməsinə ABŞ-dakı, Rusiyadakı və ya Avropadakı ədalətsizliyə həssas yanaşırıq. Yəni, məsələn, düşünmək istəmirik ki, Rusiyada kimsə ermənipərəst mövqe tutub əsl reallıqları təhrif edirsə, bu, həmin adamın öz işidir, dövlətin məsələyə qarışacağı yoxdur. Qısaca desək, hər kəsin sərbəst fikir bildirmək azadlığının indiki halda keçərsizliyi qənaətindəyik. Eyni yanaşmanı ABŞ-a və Avropa İttifaqına aid etməkdə də haqlıyıq.

Birincisi, ona görə ki, qəbuledilməz, Cənubi Qafqazda sülh ritorikasına zidd fikirlərə vurğuladığımız qütblərdən reaksiyalar ya gəlmir, ya da çox zəifdir. Onlar həmişə susurlar. Susqunluq isə razılıq əlaməti kimi qəbul edilir. Ən əsası isə susqunluq erməni illüziyalarına qol-qanad verir. İkincisi, biz onu da görürük ki, kimlərinsə ortaya atdığı məsuliyyətsiz ritorikanın danışıqlar prosesinə daxil edilməsi yönümlü səylər var. Yəni, Bakı – İrəvan münasibətlərinin axarına əks hansısa fikir əvvəl ortaya atılır, sanki buna reaksiyalar öyrənilir, eyni zamanda, həmin fikir ictimai rəyə sırınır, ardınca aram-aram onun əsas müzakirə masasına çıxarılmasına cəhd göstərilir. BMT-də dünən keçirilmiş müzakirənin də məqsədi elə bu idi.

***

Məsələyə qeyd etdiyimiz prizmadan yanaşaraq, ilk növbədə Rusiyanın üzərində dayanaq. Ölkənin ictimai rəyinin böyük əksəriyyətinin ermənipərəst olduğu məlumdur. Yəni, bu kəsim üçün Qarabağ ayrıca erməni cəmiyyəti olaraq təqdim etmək su içimi kimi bir şeydir. Əlbəttə, belə bir yanaşmaya rəsmi Moskvanın da zaman-zaman, xüsusən İkinci Qarabağ müharibəsindən sonra ortaya qoyduğu mövqe təsir göstərməkdədir.

Ümumən, Rusiyanın ictimai rəyinin dövlətin mövqeyindən uzaqlığını demək mümkünsüzdür. Ola bilər, ölkədə hansısa ekspertin, deputatın və kiminsə indiki məqamda söylədiyi hazırda rəsmi Moskvanın prioritetində deyil. Amma bu, bir siqnaldır. Nə zamansa Kreml onun üzərinə gələcək…

Rusiyanın siyasi industriyasındakı vəziyyətə nəzər salaq. Söhbət BMT-nin Təhlükəsizlik Şurasının Qarabağda humanitar vəziyyətə dair müzakirəsindən əvvəlki durumdan gedir. Bu platformada ermənipərəst ritorikanın incəliklərinə diqqət yetirəndə gördük ki, ölkənin ictimai rəyi mövzu ilə bağlı sakitdir. Buna gözləmə mövqeyi demək daha məqbuldur. Axı rəsmi Moskvanın özü də gözləyir. Gözləyir ki, xaricdəki ermənipərəstlər öz “işlərini” görsünlər. Onsuz da Azərbaycana qarşı böyük dalğa var. İndi sakit qalmaq və Bakı ilə münasibətləri korlamamaq daha məqbuldur.

Digər tərəfdən, ermənipərəstlərin hay-küyü – Qarabağın müstəqil quruluş, oranın əhalisinin xüsusi imtiyazlı qrup kimi təqdimatları bəhrəsini versə, Rusiya həmin bəhrədən faydalanmağa girişəcək. Ölkə yaxşı bilir ki, Qarabağ, Azərbaycan–Ermənistan münasibətləri müstəvisində ermənipərəst ritorikanın güclənməsi yekun nəticədə onun xeyrinədir. Münaqişəli durum həllini tapmamış qalacaq, vaxt uzanacaq və sair.

***

Keçək ABŞ-a. Diqqət yetirək, nə vaxt ki, Azərbaycan – Ermənistan münasibət tənzimləməsinin Rusiyanın inhisarından çıxarılması məsələsi aktual idi, Birləşmiş Ştatlar Administrasiyası aktiv görünürdü. Dövlət Departamentinin elə bir rəsmisi qalmamışdı ki, bəyanat verməsin. Bəs, indi niyə susublar? Nəzərə alaq ki, hazırda BMT Təhlükəsizlik Şurasına sədrliyi edən ABŞ-dır. Vaşinqton Azərbaycan –Ermənistan münasibətlərində vasitəçidirsə, üstəlik o vasitəçilikdə ölkəmizin ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması, ən əsası isə sülh müqaviləsinin imzalanması aktual əhəmiyyət daşıyırsa, bəs, BMT-dəki bu erməni oyunbazlığı nə üçündür?

Vaşinqtonda bu oyunbazlığın onun vasitəçilik missiyasına zidd anlam daşıdığını bilmirlərmi? Çox yaxşı bilir və dərk edirlər, sadəcə susurlar. Ağ evin Administrasiyasının susqunluğu təxminən bu deməkdir: Azərbaycan özü mübarizə aparsın, qalib gəlsin, sonra biz danışıqlar prosesinə vasitəçilik edərik. Sual olunur: Bakı özü mübarizə aparacaqdısa, bəs siz nə üçünsünüz? 44 günlük müharibə də prinsip etibarilə eyni mahiyyətə söykənmişdi. Azərbaycan öz torpaqlarını işğaldan qurtardı, yəni işin ağırlığının öhdəsindən gəldi, sonra vasitəçilik missiyası işə salındı…

Ancaq ictimai rəyə təsir, beynəlxalq hüququn ermənipərəst ritorikaya qurban verilməsinə danışırıqsa, Birləşmiş Ştatlardakı çərənçi ekspert, senator, konqresmen kəsim də kifayət qədər aktivdir. Biz onların da “müstəqil fikirlərinə” münasibətdə Ağ evin susqunluğunu görürük. Bəli, nəzərə alırıq ki, Rusiyadan fərqli olaraq, ABŞ-da ictimai rəyə təsir instrumentlərinin idarə olunması mürəkkəbdir.



Məsələn, BMT-də dünənki müzakirədən əvvəl Senatın Xarici Əlaqələr Komitəsinin sədri Robert Menendez və Kaliforniya senatoru Aleks Padilla ölkənin qurumdakı səfiri Linda Tomas-Qrinfildə Qarabağın blokadasının dərhal aradan qaldırılması tələbi ilə qətnamənin Təhlükəsizlik Şurasına təqdim edilməsi xahişi ilə məktub göndəriblər. Yəni, onlara başa salına bilməz ki, sizin bu məktubunuz ABŞ-ın sülh vasitəçiliyi missiyasına ziddir. Hələ beynəlxalq hüququ bir kənara qoyuruq.

Rusiyada isə bu mənada idarəolunan mexanizm var. Rəsmi Moskva, əgər ona lazımdırsa, belə “təşəbbüslər” özü təşkil edir, Birləşmiş Ştatlar isə durumu sərbəst buraxır və vəziyyəti formalaşdıranların qoyduqları ağırlığa adekvat mövqe seçir. Əlbəttə, eyni zamanda, indiki halda Azərbaycan tərəfinin öz mövqeyini necə müdafiə edəcəyinə diqqət yetirərək qərar verir. Ölkəmiz qətiyyətlidirsə, menendezlər və padillalar keçir arxa plana. Yeri gəlmişkən, onlar yenə də arxa plandadırlar və bir müddət sonra ABŞ Administrasiyası heç nə olmamış kimi, özünün ənənəvi vasitəçilik xəttinə davam edəcəkdir. Halbuki olan oldu. Vaşinqton erməni avantürasının BMT-yə çıxmasına maneçilik törətmədi.

***

Avropa İttifaqı xətti. Ümumən, Avropa siyasi spektrində vəziyyətin daha mürəkkəb olduğunu söyləməliyik. “Köhnə qitə” ermənipərəstliklə sanki nəfəs alır. Burada erməni avantürası naminə beynəlxalq hüquq normalarını tapdalamağa hazır vəziyyətdə olan qatı siyasi konqlomerat mövcuddur. Diqqət yetirək, Ermənistan Azərbaycanla münasibətlər kontekstində din amilini ortaya heç də əbəs yerə atmır. İrəvan haqqında söz açdığımız kəsimin baxışlarına yaxşı bələddir. Bilir ki, onlar XII əsrin “Səlib yürüşləri” ab-havasındadırlar. Ermənistanın destruktivizmi həmin ab-havaya, bir növ, “ahəng” gətirir.

Fikir verin, hazırda Avropa İttifaqı yoxa çıxıb. Qurumun Bakı – İrəvan münasibətlərinin nizamlanmasındakı missiyasından əsər-əlamət qalmayıb. Ermənipərəstlərin yaratdıqları ədalətsizlik dünyası onu, obrazlı desək, Roma imperiyasının, Bizansın xarabalıqları arasında basdırıb. Aİ Şurasının prezidenti Şarl Mişeldə də görünmür. Yəqin evdə oturub ermənipərəstlərin və anti-Azərbaycançı qüvvələrin BMT-də qurduqları tamaşanı seyr edib. Çox güman, prosesləri izləyərək öz vasitəçiliyi üçün yeni libas toxuyub. O da sonra heç nə olmamış kimi, öz missiyasına davam edəcək…

***

Ümumiləşdirmə apararaq, bir məqamı vurğulayaq. Azərbaycan onsuz da ikili standartlara öyrəşiklidir. Bakı otuz ilə yaxın müddətdə İrəvanla münasibətlər, danışıqlar müstəvisində onun ən müxtəlif təzahür formalalarını görüb və işini buna uyğun formada quraraq, diplomatiya meydanında uğur qazanıb və qazanmaqdadır. Ölkəmiz proseslərə səbr və təmkinlə yanaşır. Düşünülə bilər ki, vasitəçi tərəflər də səbr və təmkin nümayiş etdirirlər. Ancaq, bu, lazımsızdır, ən əsası isə sərfəli deyil.

Məsələn, Azərbaycan Avropanın enerji təchizatında mühüm rola malikdir. Avropa İttifaqı ilə əməkdaşlığımızın vacib seqmentini təşkil edən də budur. Mövcud durumda qurum Fransanı əsas götürərək, erməni avantürizminə münasibətdə səssiz qalırsa və nəticə etibarilə özünün vasitəçilik missiyasının həmin avantüristlər tərəfindən təhqirinə imkan yaradırsa və üstəlik, kənar cəbhədə tərəflərdən hansınınsa qazanacağı üstünlüyə fokuslanıb vasitəçilik etmək istəyirsə, deməli, öz missiyasına münasibətdə səmimi deyil.

Eyni sözü ABŞ və Rusiya barədə də söyləmək mümkündür. Dünyanın iki super gücü xəstə erməni təfəkküründən irəli gələn məsələlərin girovundadır, oyuncağa çevrilib. Erməni xəstəliyi onlar arasındakı rəqabət mühitinə köklənib, tərəfləri ədalət hissindən yayındırırsa, şübhələrə salırsa, yeni metod və üsullar fikirləşməyə vadar edirsə, deməli, bu iki cinah da səmimiyyətdən uzaqdır.

Bəs, ümumən ortada olan səmimiyyətsizlik mühiti Azərbaycanın vasitəçi təşkilatla – Avropa İttifaqı və ölkələrlə – ABŞ və Rusiya ilə gələcək münasibətlərinə təsir göstərməyəcək? Əlbəttə, göstərəcək. Kim ki, hansı qüvvələr ki, Azərbaycanın haqq səsinin eşidilməsinə, ədalətli mövqeyinin təmin olunmasına loyallıq göstərirlərsə, əslində, beynəlxalq hüququn prinsiplərinin pozulmasına, ali dəyərlərlə manipulyasiyaya yol verilməsinə seyrçi yanaşırlarsa, onların Bakı ilə əməkdaşlığının gələcək konturlarına baxmaq şərtdir. Yəni ikili standartlar da bir yerə qədərdir. O, siyasət prizmasından çıxıb ikiüzlülüklə əvəzlənirsə, buna bəraət əsla olmamalıdır və olmayacaq da.

***

Sonda ən vacib məqama keçid alaq. Əvvəldə bir sual ünvanlamışdıq – vasitəçilər özlərinə hörmət qoyurlarmı? Sual ritorikdir. Baxın, vasitəçilər Azərbaycan-Ermənistan danışıqlar prosesini bir yerə qədər gətirirlər. Deyək ki, səy göstərirlər, əziyyət çəkirlər. Anidən Ermənistan rəhbərliyi və ermənipərəstlərin ağlına nə isə gəlir və onlar tamam başqa xülyalara düşürlər. BMT-də dünən keçirilmiş müzakirə də həmin xülyanın təzahür formasıdır. Belə çıxır ki, erməni avantürizmi hər an nə isə ortaya atıb əldə edilmiş pozitiv meyilləri sıradan çıxarmaq potensialındadır. Elə isə vasitəçilik lazımdırmı? Özlərinə hörmət qoymayanların gördükləri işə ehtiyac varmı?

***Əvəz CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

---

**Hələ BMT Təhlükəsizlik Şurasının növbədənkənar toplantısında məlum müzakirəyə qədər maraqlı hadisələr baş verdi. Onlardan biri barədə dünən “armenpres” xəbər vermişdi. Saytın hayları muştuluqlayan “şad xəbəri” ondan ibarət idi ki, TŞ-də müzakirələrə bir gün qalmış ermənipərəst senatorlar Robert Menendes və Aleks Padilya ABŞ-ın BMT-dəki səfiri və TŞ-dakı debatlara sədrlik edəcək Linda Tomas-Qrinfildi “kəskin mövqe” ortaya qoymağa, Azərbaycan hakimiyyətinə təzyiq göstərməyə çağırıblar.**

# İrəvanın Nyu-Yorka şifrəli mesajları

## Üzdə özünü müttəfiq, tərəfdaş, ədalət carçısı kimi göstərənlərin arxada Ermənistana tərəfkeşlik etməsi aşkar sezilir

Bundan başqa, BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahının önündə ABŞ-dakı erməni diasporunun təşkil etdiyi aksiyada haylar yalan və böhtanla dolu şüarlar səsləndirib, hətta “Qarabağda acından ölən adamın şəkli” yazılmış foto-plakat qaldırıblar. Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərdən bugünədək heç birinin acından ölmədiyi məlum faktdır. Onlar nəinki aclıqdan əziyyət çəkirlər, tamamilə əksinə, Xankəndidə, Ağdərədə hər gün toy-düyün mərasimlərini keçirir, ziyafətlər təşkil edirlər. Bu kef məclislərinin birində içib keflənəndən sonra Laçın yoluna yürüş etmək xəyalına düşənlərin olduğu da danılmaz faktlardandır. İstər Avropada, istərsə də ABŞ-da erməni separatçı-daşnak-lobbist dairələrin təşkilatçılığı ilə keçirilən “etiraz aksiyalarının” birbaşa Vaşinqtona, daha doğrusu, onun Nyu-Yorkdakı nümayəndəsinə ötürülən şifrəli mesajlardan başqa bir şey deyil.

Əvvəlcədən planlaşdırılan “blokada”, “humanitar böhran”, “tır-şou” treklərindən ibarət popurri tamaşa-məzhəkəyə dirijorluq etmək üçün Ermənistan XİN başçısı Ararat Mirzoyan Nyu Yorka gedib.

* * *

Ermənistanın BMT-dəki daimi nümayəndəsi Mqer Marqaryanın gözlənilən çıxışında Qarabağdakı ermənilərin “total blokada” şəraitində yaşamasından, Azərbaycanın Laçın dəhlizini (?) 15 iyunda bağlamasından, bununla da Qarabağ ermənilərinin Ermənistana və dünyaya çıxışını kəsməsindən danışacağı şəksizdir. Marqaryanın daha sonra TŞ-nın daimi və qeyri-daimi üzvlərinin diqqətinə bütün bunların nəticəsində bölgədə humanitar vəziyyətin ağırlaşdığını və yerli əhalinin gündəlik tələbat malları, dərman və yanacaq qıtlığından əziyyət çəkdiyini, hətta bir nəfərin acından öldüyünü qeyd edəcəyi şübhəsizdir. Onun beynəlxalq təşkilatları, dünya birliyini “Dağlıq Qarabağı humanitar təcriddən qurtarmaq üçün Azərbaycana təsir göstərməyə, Laçın dəhlizindəki sərhəd məntəqəsini aradan qaldırmağa məcbur etməyə, Artsax xalqını (?) məhvolma təhlükəsindən qurtarmağa” çağıracağı da gözlənilən hay vay-şivənidir.

Aydın məsələdir ki, rəsmi İrəvanın elçisinə cavab nitqində Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev Ermənistanın bölgədəki mövcud



vəziyyətə dair BMT Təhlükəsizlik Şurasına müraciətini yalan və dezinformasiya xarakterli manipulyasiya siyasətinin davamı kimi qiymətləndirəcək. Səfirimiz çıxışında Ermənistanı bölgədə vəziyyəti gərginləşdirən təxribatçı addımlardan və bəyanatlardan, ölkəmizin daxili işlərinə müdaxilədən çəkinməyə, beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdlərini davam etdirmək əvəzinə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə çağıracaq.

BMT TŞ-nın Ermənistanın “Qarabağdakı vəziyyətlə bağlı” tələbilə çağırılan növbədənkənar iclasında qurumun 5 daimi üzvü – ABŞ, Rusiya, Çin, Fransa və Böyük Britaniya ilə yanaşı, 10 qeyri-daimi üzvü – Albaniya, Braziliya, Qabon, Qana, Birləşmiş Ərəb Əmirlikləri, Niger, Norveç, Sent-Vinsent və Qrenada, Tunis və Estoniya da iştirak edirlər.

Oxucularımızın nəzərinə çatdıraq ki, adları çəkilən ölkələrdən Qabon, Qana, BƏƏ, Niger, Sent-Vinsent, Qrenada və Tunis, eyni zamanda, Qoşulmayanlar Hərəkatının üzvləridir. Yəni, bu ölkələrin Azərbaycanın yanında yer alacağına şübhə yoxdur.

* * *

Yeri gəlmişkən, Nyu-Yorkda müzakirələrin başlanmasına bir neçə saat qalmış Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Azərbaycan ərazisinə sızmağa cəhd göstərib. Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyinin məlumatında deyilir: “Avqustun 16-da saat 11:15 radələrində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Ordumuzun Kəlbəcər rayonu İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən döyüş mövqelərinin arasındakı boşluqlardan istifadə edərək Azərbaycan ərazisinə sızmağa cəhd edib. Ermənistanın bu növbəti təxribatının qarşısı alınıb və diversiya qrupunun bir üzvü saxlanılıb”.

Ermənistan Müdafiə Nazirliyi isə Q.B. adlı əsgərin döyüş mövqeyini “özbaşına olaraq” tərk etdiyi haqda məlumat tirajlayıb. Guya hazırda onun axtarışlarını həyata keçirirlər.

Azərbaycan XİN İrəvana ünvanladığı növbəti bəyanatında Ermənistanı bölgədə vəziyyəti gərginləşdirən təxribatçı addımlardan çəkinməyə çağırıb.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

# Hayların daha bir təxribatı baş tutmadı

## Fransız və alman veteran hərbçi-polislərin durbinləri heç də hər şeyi doğru-dürüst göstərmir

(əvvəli 1-ci səhifədə)

Bundan sonra Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayaraq, Ermənistanın yaratdığı hay-küy kampaniyasını arqumentlə, necə deyərlər, darmadağın edib. Bildirilib ki, avqustun 15-də saat 12:20 radələrində Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisində, guya, Avropa İttifaqının müşahidəçiləri və onların avtomobili istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən atəş açılması barədə erməni informasiya resurslarında yayılan məlumat həqiqətəuyğun deyil və qarşı tərəfin növbəti dezinformasiyasıdır: "Bildiririk ki, Avropa İttifaqının müşahidəçilərinin Ermənistanda şərti sərhəd istiqamətində səfərlərinin vaxtı, onların hərəkət marşrutu, ərazidəki koordinatları, eləcə də avtomobillərin markası və nömrə nişanları Azərbaycan tərəfinə əvvəlcədən təqdim edilir. Azərbaycan Ordusunun bölmələri missiyanın səfərləri barədə məlumatlıdır. Bu səbəbdən də Ermənistan müdafiə nazirliyinin iddia etdiyi belə bir halın baş verməsi nəzəri və praktiki baxımdan qeyri-mümkündür".

***

Həmin günün sonuna doğru Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın fransalı həmkarı Ketrin Kolonna ilə telefon danışığında da bu məsələyə toxunulub. Telefon danışığı ilə bağlı hər iki ölkənin xarici işlər nazirlikləri açıqlama yayıblar. Maraqlıdır ki, Ermənistan tərəfinin açıqlamasında Aİ missiyasının "atəşə məruz qalması" ilə bağlı heç bir məqam yoxdur. Fransa Xarici İşlər Nazirliyinin açıqlamasının sonunda isə bununla bağlı bir cümlə var: "Nəhayət, hər iki nazir Aİ missiyasının patrul xidməti zamanı bu gün (avqustun 15-də- S.H.) Ermənistan sərhədində baş verən atışmalara da toxunub. Nazir Kolonna bu hadisələrdən narahat olduğunu bildirib və Avropa missiyasına hərtərəfli dəstək verib".

Ancaq Prezident İlham Əliyevin hələ 2004-cü ildə irəli sürdüyü informasiya müharibəsində müdafiədən "hücum diplomatiyası"na keçilməsinin şərtlərinə uyğun olaraq, fransız-erməni yalanına Azərbaycan tərəfinin reaksiyası özünü çox gözlətməyib. Xarici İşlər Nazirliyinin avqustun 16-da yaydığı açıqlamada deyilib ki, fransız nazirin rəsmi İrəvanın saxta təbliğatına inanaraq, Avropa İttifaqının Ermənistandakı missiyası tərəfindən də yanlış olaraq dəyərləndirilən, guya, missiyaya atəş açılması barədə dezinformasiyaya öz açıqlamasında istinad etməsi Fransanın bölgədə sülh və sabitliyin bərqərar olmasında maraqlı olmadığını bir daha sübut edir: "Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatında qeyd olunduğu kimi, Avropa İttifaqının nümayəndələrinin hərəkət marşrutu Azərbaycan tərəfinə əvvəlcədən təqdim olunur. Təqdim edilmiş həmin marşruta əsasən, beynəlxalq müşahidəçilərin qeyd edilən günə təyin olunmuş istiqamətə səfərinin heç bir insident baş vermədən həyata keçirilməsinə Azərbaycan tərəfi xüsusi nəzarət edib. Missiyanın səfərinin baş tutduğu ərazi heç də Ermənistanın insident baş verdiyi iddia edilən rayonda deyil, şərti sərhədin fərqli istiqamətində olub. Son günlər şərti sərhəddə və Qarabağ iqtisadi rayonunda yeni təxribatlara zəmin yaradan Ermənistan tərəfi ənənəsinə sadiq qalaraq, böhtan xarakterli məlumat yaymaqla dünya ictimaiyyətinin diqqətini yayındırmağa və bu məqsədlə Avropa İttifaqını alətə çevirməyə çalışır. Fransa tərəfinin də bu kampaniyanın alətinə çevrilməsi təəssüf doğurur".



Beləliklə, Azərbaycanın həm müdafiə, həm də xarici işlər nazirlikləri Aİ missiyası ilə Ermənistan Müdafiə Nazirliyinin birlikdə düzüb-qoşduqları daha bir təxribatın baş tutmasına imkan vermədilər. Xüsusilə, Müdafiə Nazirliyinin bununla bağlı arqumentlə, faktların dili ilə danışması hayların və onların havadarlarının əl-qolunun, necə deyərlər, bağlanmasına səbəb oldu. Əslində isə bu hadisə ermənilərin mahiyyətcə dəyişməməsinin, yaxud, dəyişə bilməməsinin göstəricisidir. Bununla bağlı bir məqamdan da bəhs etmək, zənnimizcə, yerinə düşər. Hələ 2015-ci il fevralın 7-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Ukraynadan əlavə: Avropada həll olunmamış münaqişələr" mövzusunda panel müzakirəsi keçirilmişdi. Paneldə Prezident İlham Əliyev çıxış etmiş və sualları cavablandırmışdı. Dövlətimizin başçısı Ermənistan nümayəndəsinin qərəzli sualına cavab olaraq demişdi: "Ermənistan nümayəndəsinin atəş açılması ilə bağlı sualına cavab olaraq bildirim ki, əslində, həmişə günahı bizim üstümüzə atmaq Ermənistan tərəfinin taktikasıdır. Onlar bizim torpaqlarımızı işğal ediblər, beynəlxalq hüquq normalarını pozublar, Xocalıda soyqırımı törədiblər, tarixi və dini abidələrimizi məhv ediblər və bizi günahlandırırlar. Sual isə ondan ibarətdir ki, işğal olunmuş ərazilərdə Ermənistan əsgərlərinin nə işi var? Erməni əsgərinin Ağdamda nə işi var? Əgər o ölmək istəmirsə, onda qoy Ağdama getməsin, olduğu yerdə qalsın, İrəvanda, Gümrüdə, öz ölkəsində qalsın. Sizin özünüz üçün ölkənizdə kifayət qədər yeriniz var. Ermənistanda o qədər də çox insan qalmayıb. Sizin Ağdamda, Füzulidə nə işiniz var?"

Bəli, Prezident İlham Əliyevin hələ 2015-ci ildə dediyi "əslində, həmişə günahı bizim üstümüzə atmaq Ermənistan tərəfinin taktikasıdır" fikri bu gün də öz aktuallığını itirməyib. Bu gün də Ermənistan Azərbaycanı ona dəxli olmayan məsələlərdə ittiham etməkdədir. Fərq ondadır ki, İrəvan öz yalanlarına Avropa İttifaqı kimi mötəbər, dünyada sayılıb-seçilən qurumu cəlb edir. Avropa İttifaqı, o cümlədən onun Ermənistandakı missiyası öz nüfuzunu qorumalı, adına xələl gəlməsinin qarşısını almalıdır. ATƏT və onun Minsk qrupu ilə bağlı acı təcrübə göstərir ki, gözdən, nüfuzdan düşənin, etimadı itirənin yenidən nüfuz, etimad qazanmaq səyləri heç bir nəticə vermir.

**Səxavət HƏMİD, "Xalq qəzeti"**

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV, siyasi şərhçi**

– Təəssüf ki, Avropanın bir sıra dairələri tam ermənipərəst mövqedən çıxış edirlər. Biz buna dəfələrlə şahidlik etmişik. Hətta Ermənistana elə dəstək verirlər ki, bu dəstək olmasaydı, rəsmi İrəvan çoxdan daha effektiv danışıqlar aparar və Azərbaycanla sülhə gələrdi. Aİ missiyasının bu oyuna alət olmasına ehtiyac yox idi. Dəfələrlə Azərbaycan Müdafiə Nazirliyi foto və videogörüntülər yayaraq, Ermənistan ordusunun sərhəd boyunca hərəkət etdiyini bildirmişdi. Bu dəfə isə Qarabağdakı qanunsuz hərbi birləşmələrə Rusiya sülhməramlılarının dəstəyi ilə silah-sursat daşınması faktları qeydə alınıb. Hətta yeni hərbi hissə inşa olunur. Aİ missiyası bu haqda niyə danışmır? Bura Azərbaycanın suveren ərazisidir. Üçtərəfli bəyanatın şərtlərinə görə onlar Qarabağı çoxdan tərk etməli idilər.

Avqustun 16-da BMT Təhlükəsizlik Şurasında iclas keçirilib. İclas ərəfəsində Azərbaycana edilən hücumlar bir mərkəzdən idarə olunub. Bura Aİ missiyasını da əlavə etmək olar. Missiya yaydığı açıqlama ilə BMT Təhlükəsizlik Şurasının iclası ərəfəsində ölkəmizə hücumlar üçün əlavə əsaslar yaratmaq, İrəvanın mövqelərini gücləndirmək istəyib. Buradan bir nəticə çıxır ki, BMT-dəki müzakirə heç də Ermənistanın səyi və gücü deyil. Bəzi Avropa ölkələri, elə Aİ missiyasına himayədarlıq edən Fransa bu işdə çox canfəşanlıq edir. Onlar Rusiya ilə əlbir olaraq bu və digər metodlarla ölkəmizə təzyiq etməyə çalışırlar. Həmin maraqlı tərəflər əllərindən gələni etmək istəyirlər ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanmasın.

Burada rəsmi İrəvan siyasi subyekt deyil. Sadəcə olaraq, obyektdir. Yəni, kim istəyirsə, o da istifadə edir. Bu məsələdə Nikol Paşinyan hakimiyyəti özünü çox zəif göstərir, sülh prosesini xarici qüvvələrin maraqlarına qurban verir.

Ermənistan Müdafiə Nazirliyinin yaydığı dezinformasiya isə informasiya müharibəsinin tərkib hissələrindən biridir. Şübhə etmirəm ki, Azərbaycanın müvafiq dövlət qurumları Qərbdə və Rusiyada bu oyunların arxasında hansı qüvvələrin dayandığını çox yaxşı bilirlər. Əminəm ki, Azərbaycanın tərəfdaşları və müttəfiqləri Ermənistanın yalanlarının ifşa edilməsi və əsl həqiqətlərin çatdırılması üçün bundan sonra da əllərindən gələni edəcəklər.

---

**Xarici ölkələrdə fəaliyyət göstərən 15 koordinasiya şurası və 38 ölkədəki Azərbaycan diaspor təşkilatı Cənubi Qafqaz bölgəsində yaranmış vəziyyət və Azərbaycanın sülh səylərinin dəstəklənməsi ilə bağlı beynəlxalq ictimaiyyətə bəyanatla müraciət edib.**

## Diaspor təşkilatları və koordinasiya şuraları bəyanat yayıblar

Birləşmiş Millətlər Təşkilatına və digər beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda Azərbaycanla Ermənistan arasında 2020-ci ildə baş vermiş müharibədən sonrakı vəziyyətlə bağlı qalmış aktual problemlərə diqqət cəlb edilib.

Ermənistanın 30 il ərzində işğal altında saxladığı Azərbaycan torpaqlarında dəhşətli dağıntılar və ekoloji terror törətdiyini bir daha xatırladan diaspor təşkilatları bəyan ediblər ki, erməni tərəfinin əsassız iddialarına baxmayaraq, Qarabağla bütün kommunikasiya yolları açıqdır.

Azərbaycanın yeganə tələbinin öz ərazilərində, o cümlədən nəqliyyat-kommunikasiya yolları üzərində suverenliyini qorumaq olduğu və bu tələbin beynəlxalq hüququn normalarına tam uyğun gəldiyi, Qarabağ bölgəsində irimiqyaslı bərpa-yenidənqurma işləri aparan ölkəmizin münaqişədə və yeni iğtişaşlarda maraqlı olmadığı diqqətə çatdırılıb.

Diaspor təşkilatları beynəlxalq ictimaiyyəti iki ölkə arasında münasibətlərin gərginləşdirilməsinə deyil, konstruktiv dialoqun təşkilinə yardım göstərməyə çağırıb.

## Ermənistan kəşfiyyat-diversiya qrupunun bir üzvü saxlanılıb

**Avqustun 16-da saat 11:15 radələrində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Ordumuzun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən döyüş mövqelərinin arasındakı boşluqlardan istifadə edərək Azərbaycan ərazisinə sızmağa cəhd edib.**

Bölmələrimizin sayıqlığı nəticəsində atəş vasitələrimizin dəstəyi ilə erməni hərbçilərin təxribatının qarşısı alınıb. Nəticədə, diversiya qrupunun bir üzvü yaralanmış vəziyyətdə hərbi qulluqçularımız tərəfindən saxlanılıb. Kəşfiyyat-diversiya qrupunun digər üzvləri geri çəkilməyə məcbur edilib.

**Qəzənfər QASIMOV, "Xalq qəzeti"**

---

# "Azərbaycanın sərhəddə öz postunu qurmağa haqqı var"

## Bu sözləri İrəvan Press-Klubunun rəhbəri Boris Navasardyan deyib

(əvvəli 1-ci səhifədə)

"Bu gün Ermənistan tərəfi bütün bəyanat və müraciətlərində, o cümlədən BMT Təhlükəsizlik Şurasına ünvanladığı məktubun mətnində Qarabağda "humanitar böhran" barədə məsələyə baxmağa çağıranda da "sərhəddə qeyri-qanuni nəzarət-buraxılış məntəqəsi" ifadəsindən istifadə edir. Axı o məntəqə niyə qeyri-qanuni sayılmalıdır? Məgər Azərbaycanın qonşu dövlətlə sərhədində nəzarət-buraxılış məntəqəsini yerləşdirməyə ixtiyarı yoxdur?".

Revanşist-daşnak xisləti separatçılara ünvanladığı hüquqi cəhətdən olduqca məntiqli sualına Navasardyan belə cavab verir: "Yəni buna bənzər ifadənin motivini, o cümlədən rəsmi sənədlərdə hansısa hüquqi əsaslandırmasını mən görmürəm. Üç həftədən artıqdır ki, 24 "tır" Həkəri sərhəd nəzarət-buraxılış məntəqəsinin yaxınlığında dayanıb. Həmin yük maşınları Qarabağ ermənilərinin qida məhsulları, dava-dərman və s. ilə bağlı humanitar problemlərini qismən həll etmək üçün düşünülüb. Amma o yük maşınları İrəvan və Bakı arasında hər hansı dialoq olmadan sərhəd postuna yaxınlaşıb. Onlar nəyə görə həmin əraziyə gediblər? Açığını deməliyik ki, Ermənistan hakimiyyəti bir çox məsələlərdə o qədər də səriştəli davranmır və səlahiyyət yetkililərinin hərəkətləri heç də həmişə məntiqi və konstruktiv qiymətləndirilə bilməz".

* * *

30 il ərzində Qarabağ bölgəsinin sərvətini bir ovuc erməninin taladığını deyən politoloq Yeganə Hacıyevaya görə, ümumiyyətlə, işğal dövründə İrəvan nə qədər qazanıb sualının cavabı Ermənistan dövlətinin xeyrinə deyil. Politoloq bu qara biznesdə yalnız bir neçə erməninin əlinin olduğuna diqqəti yönəldib:

"İstər Azərbaycana, istərsə də Türkiyəyə qarşı ərazi iddiaları kimi sərsəm ideologiyanı beyinlərinə perçimləmiş bir qrup erməni dünyadakı bütün hayları özlərinə qulluqçu, nökər hesab edir və onlardan istifadə edirlər. Həmin zəngin beş-on ermənının işi-gücü sözdə "milli mənafedən" danışmaq, əməldə isə hər şeyi özlərinin iqtisadi maraqlarına qurban verməyə hazır olmaqdır. Yəni, onların məqsədi soydaşlarını istismar etməkdir. Qarabağda, yaxud dünyanın başqa bir yerində yaşayan ermənının problemini onlar öz problemləri hesab etmirlər".



Ağlı başında olan ermənının Azərbaycanla normal münasibətlər qurmaq barədə düşünməli olduğunu önə çəkən Y. Hacıyeva bu kontekstdə güc amilinin kənara qoyulmasını məntiqi hesab edir:

"Öz xalqının gələcəyini fikirləşən erməni artıq başa düşməlidir ki, Qarabağda yaşayan ermənilər Azərbaycan cəmiyyətinə reinteqrasiya etməlidirlər. Bunu nə qədər tez etsələr, yalnız özlərinin xeyrinə olacaq. Paralel olaraq Ermənistan dövlətinin bütövlüyü, həm də mövcudluğu məhz bundan asılıdır. Əgər proseslər belə davam edərsə, biz Hayastanın üzləşəcəyi acınacaqlı durumun şahidi olacağıq. Suriya Ermənistanın yanında yalan olacaq".



Ermənistanla müqayisədə Azərbaycan cəmiyyətinin, onun ordusunun yalnız inkişafından və uğurlarından danışa biləcəyimizə əminliyini ifadə edən politoloq sülhə gəlməyən qarşı tərəfdə bu proseslərin tamamilə əks istiqamətdə gedəcəyini bildirib:

"Bəli, kənar qüvvələrin istədikləri hər şeyi edə bildiyi "arxa bağça"ya çevrilmiş Ermənistan Suriyanın taleyini təkrarlamağa başlayıb. İndi ağlı başında olan hər bir erməni üçün aydın olmalıdır ki, bu yolun sonu yoxdur və yersiz inadkarlıq İrəvana heç nə qazandırmayacaq. Həm də bəziləri məhz bu səbəbdən məlum mesajları verirlər. Yəni Qarabağdakı ermənilər Bakı ilə dialoqa və Azərbaycana reinteqrasiyaya nə qədər tez başlasalar, onların xeyrinə olacaq. Eyni zamanda İrəvanın da rəsmi Bakı ilə sülh danışıqlarının sürətindən onun Cənubi Qafqazda mövcudluğu birbaşa asılıdır. Bu xarakterli mesajları verən, reallığı olduğu kimi qəbul edən ermənilər az da olsa, var".



Fərdi və korporativ maraqlarını güdən, sıravi ermənilərdən "ələk" kimi yararlanan oliqarx haylardan bir fayda gəlməyəcəyini anlayanlar məhz Boris Navasardyan kimi düşünməlidirlər. Əslində, Ermənistan adlı dövlətin, eləcə də erməni millətinin qurtuluşu belə sağlam, rasional düşünən, çılpaq reallığı olduğu kimi qəbul etməyi bacaran insanların çoxalmasına və birləşməsinə bağlıdır. Utopik daşnak ideyaların, revanşist təmayüllərin hay cəmiyyətini yalnız və yalnız yeni fəlakətlərə və məhrumiyyətlərə sürükləyəcəyini anlamaqdan ötrü elə də böyük ağıla və dərin təfəkkürə ehtiyac duyulmur. Sadəcə, iki vur iki qədər sadə və dürüst həqiqəti qəbul etmək kifayətdir.

**İ.HƏSƏNQALA, "Xalq qəzeti"**

# Heydər Əliyev məktəbinin məzunları

## Onlar qüdrətli dövlət qurdular və Qarabağı bizə qaytardılar



***Hər bir sahədə, o cümlədən hərbi sahədə gənc peşəkar kadrlara ehtiyac vardır. Ulu öndər Heydər Əliyev bu məsələlərlə hələ 1970-ci illərdə məşğul olmuşdur. Onun təşəbbüsü ilə Naxçıvanski adına Hərbi Məktəbin yaradılması bizim o illərdəki tariximizdə çox önəmli hadisələrdən biri idi. Ulu öndər hələ o zaman yaxşı görürdü, yaxşı başa düşürdü ki, bizə yerli hərbi kadrların hazırlanması lazımdır – gün gələcək Azərbaycan müstəqil dövlətə çevriləcəkdir və müstəqil dövlətin güclü ordusu olmalıdır. Bu proses bu gün də davam etdirilir. Azərbaycanda hərbi kadrların hazırlanmasına böyük diqqət göstərilir. Mən çox şadam ki, hərbçilərimizin peşəkarlığı, döyüş qabiliyyəti ildən-ilə artır, ruh yüksəkliyi yüksək səviyyədədir.***

***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Bakıda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin buraxılışına həsr olunmuş mərasimdəki nitqindən***

**Əslində, "Heydər Əliyev məktəbi" deyəndə ilk növbədə ulu öndərin həm 1969 – 1982 - ci illərdə, həm də müstəqillik dövründə siyasi hakimiyyətə qayıdandan sonra tikintisinə, açılışına və fəaliyyətinə nail olduğu yüzlərlə orta məktəb, ondan çox universitet, institut və texnikum, hərbi məktəblər yada düşür. Bundan başqa onun ötən əsrin 70-80-ci illərində azərbaycanlı gəncləri ali təhsil almaq üçün SSRİ-nin müxtəlif şəhərlərinə və xarici ölkələrə göndərmək ənənəsi də sonradan bir məktəb kimi formalaşdı.**

"Heydər Əliyev məktəbinin məzunları" deyəndə isə ulu öndərin dövlətçilik, idarəetmə və diplomatiya təcrübəsini dərindən mənimsəmiş siyasətçi, diplomat, iqtisadçı və müasir Azərbaycanın tərəqqisində iştirak edən digər sənət-peşə adamlarımız xatırlanır. Yeri gəlmişkən, bir neçə ay əvvəl qəzetimizdə silsilə müsahibələrini verdiyimiz görkəmli dövlət xadimləri Həsən Həsənov və Arif Rəhimzadə, eləcə də, Əhməd Əhmədzadə və Abid Şərifov... sözün həqiqi mənasında, Heydər Əliyev məktəbinin dəyərli məzunlarıdırlar.

Ancaq mütəxəssislərin fikrincə, Heydər Əliyev siyasi məktəbinin ən uğurlu məzunları bugünkü müstəqil Azərbaycanı regionun ən qüdrətli dövlətinə çevirən, işğalçı və terrorçu qonşularımızın otuz ilə yaxın əsarətdə saxladığı torpaqlarımızı öz sahiblərinə qaytaran, dünya siyasətçilərinin böyük hörmət və ehtiramla qəbul etdiyi cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident, ümummilli liderimizin adını daşıyan fondun rəhbəri Mehriban xanım Əliyevadır.

Təbii ki, bu iki dövlət xadiminin ictimai-siyasi fəaliyyəti haqqında ölkəmizdə və beynəlxalq aləmdə çox yazılıb. Elə "Xalq qəzeti" də bu istiqamətdə az iş görməyib. Ona görə də biz söhbətin bu istiqamətini yekunlaşdıraraq, sözün həqiqi mənasında, "Heydər Əliyev məktəbi" statusunu qazanmış Heydər Əliyev adına Hərbi İnstitutun məzunları barədə söz açmaq istəyirik. Dövlət başçımızın dediyi kimi, həmin məktəbin məzunları həm Birinci Qarabağ müharibəsində, həm Aprel döyüşlərində, həm ermənilərin 2020-ci ilin iyunundakı təxribatlarının qarşısını almaq üçün başlanan hərbi əməliyyatlarda, həm də İkinci Qarabağ müharibəsinin gedişində, sözün həqiqi mənasında, hərbçi peşəkarlığı, mərdliyi, mübarizliyi nümayiş etdirmişlər.

Mən fəxr edirəm ki, doğulub böyüdüyüm Qəbələ rayonunun yetirməsi, Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru, Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Komandir müavini — Qərargah rəisi, Silahlı Qüvvələrimizin hərbi əməliyyatlar zamanı şəhid olan birinci və yeganə generalı Polad Həşimov məhz həmin ali məktəbin məzunudur. Onunla da fəxr edirəm ki, həmin ali məktəbin yerləşdiyi küçə indi məhz şəhid generalın adını daşıyır.

... Xatırladaq ki, ulu öndərin 1969-cu ildə siyasi hakimiyyətə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət almışdı. Məhz onun təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Təsadüfi deyil ki, bu hərbi məktəb Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi. Zaman keçdikcə isə bu istiqamətdə yeni addımlar atıldı və nəhayət, bu gün Bakıda dünya miqyasında tanınan Heydər Əliyev adına Hərbi İnstitut fəaliyyət göstərir. Bu ali məktəbin əvvəlki adları Həzi Aslanov adına Bakı Ali Birləşmiş Komandirlər Məktəbi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi idi.

Əlavə edək ki, Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 2015-ci il tarixli sərəncamına əsasən, Azərbaycan Ali Hərbi Təyyarəçilik və Azərbaycan Ali Hərbi Dənizçilik məktəbləri ləğv edilmiş, Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə və Hərbi Dəniz Qüvvələri fakültələri yaradılmaqla Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə birləşdirilmişdir. Azərbaycan Respublikasının Prezidentinin 5 mart 2022-ci il tarixli fərmanı ilə Ali Hərbi Məktəbin əsasında Heydər Əliyev adına Hərbi İnstitut yaradılaraq Milli Müdafiə Universitetinin tabeliyinə verilmişdir.

Bu gün həmin institutda Azərbaycan Silahlı Qüvvələrində ehtiyacı olan bütün ixtisaslar üzrə zabitlər hazırlanır. Tankçı, yerüstü artilleriya ixtisası üzrə mütəxəssis, qoşun kəşfiyyatı ixtisası üzrə mütəxəssis, radioelektron kəşfiyyat və radioelektron mübarizə ixtisası üzrə mütəxəssis, rabitəçi, mühəndis-istehkam ixtisası üzrə mütəxəssis, raket və artilleriya silahlarının istismarı və təmiri ixtisası üzrə mütəxəssis, tərbiyəvi işin təşkili ixtisası üzrə mütəxəssis, quru qoşunlarının idarə olunmasının avtomatlaşdırılmasının təşkili ixtisasına yiyələnən gənclərimiz İkinci Qarabağ müharibəsi günlərində nəyə qadir olduqlarını yüksək səviyyədə nümayiş etdirmişlər.

Məhz həmin səviyyənin nəticəsidir ki, bu ali təhsil müəssisəsinin məzunlarından polkovnik Şükür Həmidov, general-mayor Fəxrəddin Cəbrayılov, polkovnik Eldar Ağayev, polkovnik-leytenant Şikar Şikarov (ölümündən sonra), mayor Rasim İbrahimov (ölümündən sonra) mayor Əfqan Hüseynov (ölümündən sonra), kursant Kərim Kərimov (ölümündən sonra) və digərləri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər. Onlar, məhz Heydər Əliyev məktəbinin məzunları idilər.

2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsinə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 4-cü kurs kursantları və zabit-gizir heyəti də qatılmışdır. 29 sentyabr 2020-ci ildən etibarən Ali Hərbi Məktəbin 500-dən çox 4-cü kurs kursantı və yüzlərlə zabit-giziri Vətən Müharibəsində iştirak üçün cəbhə xəttinə yollanmış, kursantlar kiçik leytenant hərbi rütbəsi ilə müxtəlif vəzifələrdə strateji döyüşlərdə iştirak etmişdir. Kursantlardan Yaqub Nəcəfov, Seymur Abbasov, Namaz Allahverdiyev, Vüsal Muradov, Sadiq Nəcəfli şəhid olmuşlar. Məktəbin zabitlərindən, "Uçuş mühəndisliyi" kafedrası rəisinin müavini, polkovnik Zaur Nudirəliyev şəhid olmuş, ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdür. Həmçinin, "Artilleriya" kafedrasının baş müəllimi, mayor Fərid Ələkbərov, "Ümumi fənlər" kafedrasının baş müəllimi polkovnik-leytenant Qərib Baxşəliyev, "Kəşfiyyat" kafedrasının baş müəllimi, mayor Rüfət Əsgərov, kursant taqımı komandiri, kapitan Elvin Kazımov şəhid olmuş, orden və medallarla təltif edilmişdir. Eləcə də, 23 zabit və kursant müxtəlif dərəcəli yaralar almış və qazilik mərtəbəsinə yüksəlmişdir.

Sonda fikirlərimizi Heydər Əliyev məktəbinin ən uğurlu məzunu Prezident İlham Əliyevin bu il iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olarkən səsləndirdiyi fikirlərlə tamamlayırıq: "Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni, bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır... Azərbaycan xalqı bu il ulu öndər Heydər Əliyevin 100 illiyini qeyd edir. Ulu öndərin Azərbaycan Ordusunun formalaşmasında xüsusi rolu vardır. Hələ sovet dövründə Naxçıvanski adına Hərbi Məktəbin yaradılması məhz bu məqsədi güdürdü ki, Azərbaycanda peşəkar zabit təbəqəsi yaransın".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Ulu öndərin razılığını qazanmış inşaatçı

**Xalqımızın görkəmli oğlu, ulu öndər Heydər Əliyev Naxçıvan Milli Məclisinə rəhbərlik edərkən – 1991-ci ilin çətin və ağır blokada dövründə Sumqayıtdakı "Azmənzilsənayetikintitəmir" İstehsalat Birliyinin baş direktoru Akif Zeynalova muxtar respublikanın bütün rayonlarında tikinti idarələri olan Tikinti-Təmir Tresti yaratdığına, onun səmərəli fəaliyyətini təmin etdiyinə görə məktub göndərmiş, xüsusi təşəkkürünü bildirmişdi: "Hörmətli Akif bəy! Mən sizi şəxsən tanımıram. Ancaq bu çətin günlərdə Naxçıvana tikinti materialları və yanacaqla, maşın-mexanizmlə göstərdiyiniz daimi köməyə görə sizə təşəkkürümü bildirirəm. Burda inşa etmək istədiyiniz kərpic zavodu isə bu gün Naxçıvana daha çox gərəkdir. Hörmətlə: Heydər Əliyev."**

Həmin illərdə ovaxtkı Azərbaycan rəhbərliyi Naxçıvana ögey münasibət bəsləyir, Heydər Əliyevə isə sərt qadağalar qoymuşdu. Bu, elə bir dövr idi ki, respublika tabeli heç bir müəssisə Naxçıvana kömək edə bilmirdi. Amma "Azmənzilsənayetikintitəmir" İB Moskvaya tabe olduğundan, Akif Zeynalov kimsəyə hesabat vermədən, qorxub-çəkinmədən Naxçıvana əl uzadırdı. Muxtar respublikada yaratdığı 7 idarədən ibarət Təmir-Tikinti Trestinə İran ərazisindən daşınmaqla tikinti materialları göndərirdi. Bu isə yardımlara həssaslıqla yanaşan Heydər Əliyevin diqqətindən yayınmamışdı. Odur ki, İB-nin rəhbərinə Naxçıvan Milli Məclisinin blankında öz əli ilə yuxarıdakı təşəkkür məktubunu yazıb göndərmişdi...



Akif Zeynalovun Heydər Əliyev şəxsiyyətinə rəğbəti hələ 1969-cu ildən yaranmışdı. Respublikanın yeni başçısının xalq təsərrüfatının bütün sahələrində, o cümlədən neft-kimya sahəsində sürətli tərəqqiyə nail olmaq üçün gördüyü irimiqyaslı işlər o zaman 27 yaşı olan gənc kimyaçı-mühəndis Akifin də böyük rəğbətinə səbəb olmuşdu. O, ulu öndərin Azərbaycanı yalnız aqrar respublika kimi yox, həm də güclü sənaye diyarı kimi inkişaf etdirmək üçün apardığı məqsədyönlü işlərlə qürur duyur, bu prosesdə fəal iştirak etmək istəyirdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə neft-kimya sənayesinin maşın-avadanlıq parkının 1970-ci ildən başlayaraq ildən-ilə yenilənməsi, ən müasir texnologiya ilə təchiz edilməsi gənc mühəndisin bu yüksəlişə maraq və inamını artırırdı.

Akif Zeynalovun o zaman çalışdığı "Sintezkauçuk" zavodunda nadir texnoloji qurğunun – "EP-300", qonşu "Üzvi sintez" zavodunda isə "Polimir-120" komplekslərinin tikilib istifadəyə verilməsi bilavasitə Heydər Əliyevin Azərbaycanın kimya sənayesinin gələcək inkişafına göstərdiyi diqqət və qayğının, verdiyi layiqli töhfənin təzahürü idi. Bütün bunlar Sumqayıt kimyaçıları kimi, Akif üçün də çox xoş idi və onda böyük qürur doğururdu. O bilirdi ki, Çexoslovakiya istehsalı olan, böyük valyuta bahasına başa gəlmiş "EP-300" kompleksini Moskva əvvəlcə başqa bir respublikaya göndərməyi nəzərdə tutsa da, Heydər Əliyev özünün nüfuzundan istifadə edərək, həmin nadir qurğunun məhz Azərbaycana gətirilməsinə nail olmuşdu. Ümummilli lider yaxşı bilirdi ki, həmin kompleks Sumqayıtda inşa edilməsə, Azərbaycan kimyası kiçik potensiallı, ucuz xammal istehsalçısı olaraq qalacaqdı. Heydər Əliyev təklifini Kreml qarşısında respublikamızın xeyrinə inandırıcı fakt və arqumentlərlə əsaslandıra bilmiş, "EP-300" uğrunda mübarizədə qalib gəlmişdi. Bu nüfuz və məharətinə görə Akif Zeynalov dahi rəhbərlə fəxr edirdi. O, ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışını da aşıb-daşan sevinclə qarşılamışdı.

Müstəqillik illərində öz işinə daha böyük məsuliyyətlə yanaşan, ulu öndərin həyata keçirdiyi iqtisadi islahatlara töhfələrini əsirgəməyən Akif Zeynalov vətənpərvər təşəbbüsləri ilə daim seçilib. Erməni separatizmi baş qaldırdığı ilk dövrlərdə "Sumqayıtkauçuk-təmirtikinti" Trestinin rəisi olan Akif Zeynalov düşmən təxribatları nəticəsində qaçqınlıq, köçkünlük əzablarına məruz qalan soydaşlarımıza bacardığı qədər kömək göstərib. O zaman öz təşəbbüsü və yorulmaz səyləri ilə respublikada ən iri təmir-tikinti müəssisəsini – "Azmənzilsənayetikintitəmir" İstehsalat Birliyini yaratması da onun çevik təşkilatçılıq bacarığının nəticəsi idi. Bu yurdsevər insan Laçından, Qubadlıdan tutmuş bütün Qarabağ zonasında (Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam, Ağcabədi, Xocalı rayonlarında) və Azərbaycanın digər bölgələrində 130-dan çox idarəni birləşdirən 11 Təmir-Tikinti Tresti yaratmağa nail olub. Həmin idarələrdə, ümumilikdə, 5 mindən artıq işçi çalışırdı ki, onların 1200-dən çoxu qaçqın-köçkün həmvətənlərimiz idi. Hamısı da sığınacaqla, sabit əməkhaqqı ilə təmin olunmuşdu.

Xocalı qəsəbəsinə şəhər statusu verildikdən sonra orada aparılan tikinti-abadlıq işlərində Akif müəllimin rəhbərlik etdiyi kollektivin yüzlərlə işçisi fəal iştirak edib. Silahlı qarşıdurmaların, döyüşlərin gücləndiyi dövrlərdə o, dəfələrlə sərhəd rayonlarında olub, Şuşaya, Laçına, Ağdama, böyüyüb boya-başa çatdığı Füzuliyə, xüsusən Xocalıya həm tikinti materialları, həm də ərzaq və sair aparılması üçün maksimum fədakarlıq göstərib.

"Azmənzilsənayetikintitəmir" İB-nin baş direktoru kimi Akif Zeynalov Milli Ordumuzun yaradılmasına, onun silah-sursatla təmin edilməsinə sanballı kömək göstərib. O, Azərbaycanın Milli Qəhrəmanları Əlif Hacıyevin, Yuri Kovalyovun ailələrinə, cəbhədə yaralanaraq müalicəyə ehtiyacı olanlara, mədəniyyət işçilərinə, Türkiyədə,




Almaniyada, Rusiyada, Ukraynada təhsil alan ali məktəb tələbələrinə də təmənnasız yardımlar edib. Akif müəllim Daşaltı əməliyyatında həlak olmuş 40-dan artıq döyüşçünü "fəxri işçi" kimi Birlikdə qeydə aldıraraq, onların ailələrinə daimi maddi köməklik göstərib. Şəhid ailələrinin, qazilərin, kimsəsizlərin dayağı olub. O vaxt respublikanın maliyyə böhranı keçirən bir çox müəssisə və büdcə təşkilatları da kömək üçün kifayət qədər gəlirli olan tikinti təşkilatının səxavətli rəisi Akif Zeynalova üz tutublar.

Bir çox "oliqarxlar"dan fərqli olaraq, məhz Akif müəllimin rəhbərlik etdiyi birliyin sayəsində 1990–94-cü illərdə mədəniyyətə, incəsənətə də qayğı göstərilib, el arasında deyildiyi kimi, əl tutulub.

Heydər Əliyev qvardiyasının sadiq, etibarlı əsgəri olan, hər şeydən öncə doğma xalqını düşünən bu vətənpərvər insan xeyriyyəçilik missiyası ilə respublikamızın müxtəlif bölgələrində, o cümlədən Sumqayıtda sosial-mədəni obyektlərin təmirinə, bir sıra əhəmiyyətli tədbirlərin keçirilməsinə də yaxından kömək göstərib. Abşeron rayonunun Saray qəsəbəsində böyük bir məscidin layihələndirmə və tikinti xərcləri bütünlüklə həm İstehsalat Birliyinin, həm də bir xeyriyyəçi kimi Akif müəllimin şəxsi vəsaiti hesabına ödənilib.

Onu da deyək ki, mühəndis bacarığı ilə yanaşı, yaradıcı istedadı ilə də fərqlənən Akif Zeynalov ötən əsrin 90-cı illərində teatr-kino aləminə dramaturq Akif Həsənoğlu kimi daxil olub və 10-a qədər maraqlı pyes yazıb. "Mənim ağ şəhərim", "Yanmış evin nağılı", "Dəfn", "Qara daş", "Oğurlanmış xalça", "Tənha payız yarpağı", "Qocalar evində", "Dünyaxanım ev axtarır", "Dost qeyrəti" əsərləri bu sıradandır. Həmin pyeslərdən 5-i Sumqayıt Dövlət Dram Teatrının və Bakının "Meydan" teatrının səhnələrində tamaşaya qoyulub.

Özünün də sıralarında olduğu Sumqayıt kimyaçılarına həsr olunmuş və dramatikliyi ilə tamaşaçılarda böyük maraq yaratmış "Mənim ağ şəhərim" pyesinin motivləri əsasında maraqlı film də çəkilib. Bu əsərdə sovetlər dönəmində qəsdən kimya poliqonuna çevrilmiş Sumqayıtın o vaxtkı gərgin ekoloji vəziyyətini, şəhər əhalisinin ağır sosial şəraiti ön plana çəkilib. Hətta ölkəmizdə azad iqtisadi zonaların yaradılmasının təşəbbüskarlarından olan BMT-nin Azərbaycan üzrə o vaxtkı nümayəndəsi Paoolo Lembo Sumqayıtdakı rəsmi tədbirlərin birində çıxışını həmin filmdən aldığı təəssüratla başlamışdı.

Təsadüfi deyil ki, bir bacarıqlı təsərrüfat adamı və təşkilatçı, vətəndaş və ziyalı kimi tanınan Akif Zeynalovun zəhməti daim yüksək dəyərləndirilib. Sevimli şəhəri Sumqayıtın 70 illik yubiley günlərində Prezident İlham Əliyevin imzaladığı sərəncamla ona "Azərbaycanın Əməkdar mühəndisi" fəxri adı verilib.

Bəli, özünü Heydər Əliyev məktəbinin yetirməsi sayan, hər zaman bu adı layiqincə doğrultmağa çalışan el ağsaqqalı Akif Zeynalov belə hörmət-izzət sahibidir.

***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

# Ceyhun Bayramov Toivo Klaarı qəbul edib



**Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı tərəflər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi, Avropa İttifaqı da daxil olmaqla beynəlxalq tərəfdaşların vasitəçiliyi ilə həyata keçirilən danışıqlar, habelə cari regional vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.**

Nazir Ceyhun Bayramov son zamanlar Ermənistanın regionda artan hərbi-siyasi təxribatlarının, bölgədə "blokada" və "gərgin humanitar vəziyyət" barədə saxta və əsassız iddiaların sülh və sabitliyə xidmət etmədiyini vurğulayıb.

Avropa İttifaqı tərəfindən də dəstəklənmiş Ağdam-Xankəndi yolundan istifadə və buna paralel olaraq Laçın yolunda gediş-gəlişin intensivləşməsi barədə, eləcə də erməni sakinlərin nümayəndələri ilə reinteqrasiya istiqamətində görüşə dair razılıqların pozulmasının Ermənistanın normallaşma prosesində maraqlı olmadığını göstərdiyi vurğulanıb.

Tərəflər, qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələləri müzakirə ediblər.

# Azərbaycan XİN-dən ATƏT sədrinə cavab

**"Laçın sərhəd-keçid məntəqəsindən hər gün hər iki istiqamətdə onlarla erməni əsilli Azərbaycan sakini keçir".**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə "X" (tviter) sosial şəbəkəsində yazıb.

O, Şimali Makedoniyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmaninin tviter paylaşımına cavab verib.

"Cənab nazir, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da sərhəddən keçid yaxşı tənzimlənir və heç yerdə sərbəst keçid anlayışı yoxdur. Bölgəyə böyük həcmdə yüklərin tədarükünə gəlincə, Azərbaycan bu məqsədlər üçün Ağdam–Xankəndi yolunu ayırıb ki, əgər 10 gün əvvəl ermənilər tərəfindən razılaşmanın şərtləri pozulmasaydı, bundan istifadə edə bilərdilər", – deyə Hacızadə qeyd edib.

Xatırladaq ki, Buyar Osmani yerlərdəki vəziyyətlə tanış olmaq üçün şəxsi nümayəndəsinə Laçın rayonuna getmək tapşırığı verib.

# XİN: Ermənistanı vəziyyəti gərginləşdirən təxribatçı addımlardan çəkinməyə çağırırıq

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumatda qeyd olunduğu kimi, avqustun 16-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Azərbaycan ərazisinə sızmağa cəhd göstərsə də, Ermənistanın bu növbəti təxribatının qarşısı alınıb və diversiya qrupunun bir üzvü saxlanılıb.**

Ermənistanın bölgədə vəziyyətə dair BMT Təhlükəsizlik Şurasının iclası ilə eyni gündə hərbi təxribatları davam etdirməsini manipulyasiya siyasətinin davamı kimi qiymətləndirir və qətiyyətlə pisləyirik.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilir.

"Ermənistanı bölgədə vəziyyəti gərginləşdirən təxribatçı addımlardan və bəyanatlardan, Azərbaycanın daxili işlərinə müdaxilədən çəkinməyə, beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdlərini davam etdirmək əvəzinə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə çağırırıq.

Bölgədə vəziyyətin gərginləşməsi məsuliyyəti bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərindədir", – bəyanatda qeyd olunub.

*"Xalq qəzeti"*

# Xankəndi sakininin acından ölməsi iddiaları tibbi biliklərə əsaslanmır

**Qondarma "Dağlıq Qarabağ respublikası"nın "ombudsmanı" X (tviter) sosial şəbəkəsində, digər erməni media və sosial şəbəkə səhifələrində Xankəndi şəhər sakini, 1983-cü il təvəllüdlü K.Hovhannisyanın guya uzun müddət qida qəbul etməməsi səbəbindən ölməsi barədə həqiqətə uyğun olmayan məlumatlar yayıb.**



Səhiyyə Nazirliyi Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru, tibb elmləri doktoru, professor Ədalət Həsənov ermənilərin bu iddialarının əsassız olduğunu tutarlı arqumentlərlə sübuta yetirir.

Bu yalan və uydurma məlumatlarla bağlı bildirmək istərdim ki, əvvəlcə şəklin hansı tarixdə, hansı ölkədə və şəhərdə çəkilməsi müəyyən deyil. Şəkildə autopsiya masasında uzadılmış kişi cinsli şəxsin gövdəsinin ön tərəfi görünür və meyit arxası üstə uzadıldığı üçün qarnı yaprıxmış vəziyyətdədir. Bu isə aclığın və ya acından ölmənin əlaməti deyil. Meyitdə təkcə gövdənin ön səthində aşkarlanan təzə xəsarətlər və müxtəlif müddətlərə malik köhnə xəsarət izləri (sıyrıqlar və qançırlar, çapıq toxumaları) şübhəli məqamlardandır.

Bundan başqa, döş qəfəsinin ön sol tərəfində ürək proyeksiyasında reanimasion tədbir nəticəsində iki ədəd ovalşəkilli defibrilyasiya izləri görünür. Bu da onu deməkdir ki, həmin şəxs nə evdə, nə də küçədə ölməyib, o, xəstəxananın reanimasiya şöbəsində ölüb və xəstəyə reanimasiya şöbəsində reanimasion tədbirlər görülüb.

Fotoşəkildəki görünüş əslində heç kaxeksiya (üzülmə) da deyil. Sadəcə arıqlamış bir şəxsə məxsus bədən quruluşdur. Belə bədən quruluşuna nəinki meyitdə, hətta canlı və sağlam şəxslərdə də rast gəlmək mümkündür.

Xroniki qida aclığı ilə əlaqədar insanın üzv və toxumalarında dəyişikliklər baş verir və buna "Alimentar mənşəli kaxeksiya" deyilir. Alimentar kaxeksiya zamanı dərinin rəngi bozumtul-bürünc rəngə çalır, şəkildəki kimi belə ağ və təmiz olmur.

Bildiririk ki, yayılan məlumatlar heç bir tibbi biliklərə əsaslanmayan iddialardır.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# Yaşar Əliyev Ermənistan tərəfinin əsassız ittihamlarına tutarlı cavab verib

*(əvvəli 1-ci səhifədə)*




Çıxışına Ermənistanın ölkəmizə qarşı təbliğ etdiyi "blokada" və ya "humanitar böhran" ilə bağlı bütün əsassız və sübutu olmayan iddiaları qətiyyətlə rədd edərək başlayan Y.Əliyev bildirib ki, Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır.

Məhz Ermənistan 30 ilə yaxın dövrdə işğalçı qüvvələrin Azərbaycan ərazisindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını birmənalı şəkildə tələb edən 1993-cü ilin müvafiq dörd qətnaməsinə və Təhlükəsizlik Şurasının sədrinin bir sıra bəyanatlarına açıq-aşkar məhəl qoymayıb. Bu xüsusda, Ermənistanın hərəkətləri əvvəlcədən planlaşdırılmış siyasi riyakarlığın təcəssümündən başqa bir şey deyil və onun Təhlükəsizlik Şurasına müraciəti aylar ərzində beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsidir.

Əgər Ermənistan yardım etmək istəyində səmimi olsaydı, bu, dərhal baş verərdi. Bu, həqiqətən də bu yaxınlarda - bir neçə gün əvvəl beynəlxalq aktorların, o cümlədən Təhlükəsizlik Şurasının bəzi üzvlərinin fəal iştirakı nəticəsində praktiki olaraq mümkün idi. Bu, təkcə Ermənistanın imtinası nəticəsində baş tutmadı.

Qeyd edilib ki, bir sıra intensiv məsləhətləşmələr və "məkik diplomatiyası" səylərindən sonra, nəhayət humanitar yüklərin müxtəlif marşrutlar vasitəsilə Qarabağ bölgəsinə çatdırılması, eləcə də mərkəzi hakimiyyətin xüsusi nümayəndələri ilə yerli erməni sakinləri arasında görüşün təşkilinə dair razılıq əldə olunmuşdu.

Birinci halda Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən humanitar yüklərin yerli sakinlərə çatdırılması üçün Ağdam-Xankəndi yolunda erməni tərəfinin quraşdırdığı beton bloklar və bütün digər fiziki maneələr aradan qaldırılmalı idi. Bunun ardınca 24 saat ərzində BQXK-nın Laçın yolundan istifadəsinin genişləndirilməsi nəzərdə tutulurdu. İştirak edən bütün tərəflər, o cümlədən Rusiya sülhməramlı kontingenti və BQXK bu razılığın praktiki olaraq bir saat ərzində həyata keçirilməsinə başlamağa hazır idi.

İkinci halda mərkəzi hakimiyyət nümayəndələri ilə yerli erməni sakinləri arasında görüşün Azərbaycanın yaxınlıqdakı Yevlax şəhərində keçirilməsi razılaşdırılmışdı.

Təəssüflər olsun ki, on gün əvvəl - avqustun 5-də Ermənistan qanunsuz qurulan rejimi vasitəsilə siyasi motivli və qeyri-qanuni ilkin şərtlər və müxtəlif bəhanələr irəli sürməklə hər iki razılaşmadan son anda geri çəkildi.

Şübhə yoxdur ki, vəziyyətdən çıxış yollarını tapmaq üçün Azərbaycanın Rusiya Federasiyası, ABŞ, Avropa İttifaqı və BQXK ilə six əməkdaşlıq etməsinə baxmayaraq, Ermənistan diplomatik səylərə qəsdən maneçilik törədir.

Bunun yalnız bir izahı var. Ermənistan məsələni həll etmək niyyətində deyil. Bunun əvəzində beynəlxalq səviyyədə manipulyasiya və çaşqınlıq səylərini davam etdirmək məqsədilə regionda gərginliyi süni şəkildə alovlandırır.

Avqustun 5-də BQXK vasitəsilə humanitar yüklərin çatdırılmasına dair razılaşmanın pozulması yeganə maneə deyil. Əslində bu, Ermənistanın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə meydan oxumaqla və yerli etnik erməni sakinlərinin reinteqrasiyasına mane olmaqla bu humanitar təşkilatın ərazidə mövcudluğunu və fəaliyyətini siyasiləşdirməsinin, eləcə də humanitar məsələlərdən siyasi məqsədlər üçün istifadə etmək cəhdinin davamıdır.

**Yaşar Əliyev çıxışında bəzi faktları iclas iştirakçılarının diqqətinə çatdıraraq deyib:**

"- 2020-ci ildə müharibə başa çatdıqdan dərhal sonra Azərbaycan yüklərin Qarabağ bölgəsinə çatdırılması üçün öz logistik imkanlarını və infrastrukturunu BQXK-ya təklif edib. 2021-ci ildə yüklər BQXK tərəfindən həmin əraziyə çatdırılmaq üçün Bərdəyə daşınıb. Erməni tərəfi yüklərdən imtina edərək BQXK-nın humanitar yardımı çatdırmasına mane olub.

- Laçın-Xankəndi yolunda ekofəallaların etirazları başlayandan dərhal sonra Azərbaycan BQXK-dan yerli sakinlər üçün lazım olan malların siyahısını təqdim etməyi xahiş edib və onların çatdırılması üçün bütün maddi-texniki və infrastruktur dəstəyi göstərməyə hazır olduğunu bildirib. BQXK cavab verib ki, Ermənistan tərəfi Azərbaycan üzərindən hər hansı təchizat istəmir.

- Ermənistan BQXK-nın vasitəçiliyindən sui-istifadə etməklə Qarabağ bölgəsinə mikroçiplər kimi ikili təyinatlı texnologiyaları qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd göstərməklə presedentsiz addım atıb. BQXK Komitənin humanitar mandatına və nüfuzuna ciddi zərbə vuran bu faktı etiraf etməyə məcbur olub.

- Ermənistan BQXK-nın Bakıda yerləşən beynəlxalq tibb işçilərinin Xankəndiyə göndərilməsini qəbul etməyib. Bu təklif BQXK-nın tibbi evakuasiyalarını asanlaşdırmaq və tibbi məsələlərin yerində həllinə kömək etmək çərçivəsində irəli sürülüb və Azərbaycan tərəfindən dəstəklənib.

Ermənistanın BQXK-dan siyasi məqsədləri üçün sui-istifadə etməsi də açıq şəkildə göstərir ki, beynəlxalq mövcudluğun, o cümlədən BMT-yə bağlı təşkilatların artırılmasına dair çağırışların humanitar narahatlıqla heç bir əlaqəsi yoxdur, bunun əvəzinə məqsəd manipulyasiya etmək üçün daha çox alət əldə etməkdir".

Qarabağ bölgəsinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olduğunu və orada yaşayan etnik ermənilərin Azərbaycanın sakinləri hesab edildiyini vurğulayan daimi nümayəndə bildirib ki, Azərbaycan hökuməti bu sakinlərin zəruri mallara çıxışını təmin etmək, onlar üçün müvafiq yaşayış şəraiti yaratmaq əzmindədir. Bu məqsədlər beynəlxalq hüquqa və beynəlxalq humanitar hüququn prinsiplərinə tam uyğundur ki, bu da Azərbaycanın sözügedən standartlara riayət etməkdə sarsılmaz sadiqliyini nümayiş etdirir.

"Laçın dəhlizi" adlanan yol Azərbaycanın suveren ərazisi daxilində, heç bir ekstraterritorial statusu olmayan, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, ilk növbədə, vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin daşınması üçün nəzərdə tutulmuş yoldur. Azərbaycan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə sadiq qalaraq bu yolda hərəkətə icazə verib. Azərbaycan Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etdikdən sonra da bu olduğu kimi qalır.

Sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüququ çərçivəsində, Ermənistanın bu marşrutdan Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçinin rotasiyası, silah, sursat, mina və xarici terrorçuların daşınması, habelə bu ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması və daşınması kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq-aşkar sui-istifadə etməsinin qarşısını almaq məqsədilə yaradılıb.

Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın "Laçın" keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib edib.

Y.Əliyev sərhəd-buraxılış məntəqəsinin yaradılmasının mülki əhalinin Laçın yolu ilə gediş-gəlişinə mane olmadığını, 2023-cü il iyunun 15-dək bu cür hərəkətlərin sayının faktiki olaraq nəzərəçarpacaq dərəcədə artdığını diqqətə çatdıraraq deyib: "Həmin tarixdə Ermənistanın davam edən təxribatının növbəti nümunəsi Ermənistan silahlı qüvvələrinin Azərbaycan sərhədçiləri və onları müşayiət edən Rusiya sülhməramlı qüvvələrinə hücumu zamanı baş verib. Bu hücum Azərbaycan sərhədçisinin ağır yaralanması ilə nəticələnib və eyni zamanda, BQXK-nın əməkdaşları və məntəqədən keçən mülki şəxslər üçün birbaşa təhlükə yaradıb.

Bununla yanaşı, Ermənistan həqiqətən də bölgənin sadə sakinlərini düşünsəydi, heç vaxt Ağdam-Xankəndi yolundan Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdi. Bu yol Azərbaycanın əsas nəqliyyat marşrutlarından birinə - "İpək Yolu" və ya M2 avtomobil yolu kimi tanınan və beynəlxalq bazarlara etibarlı əlaqəni təmin edən magistral yolu ilə bağlıdır. Uzunluğu 59 kilometr olan, dağlıq və serpantinli ərazidən keçən Laçın-Xankəndi yolu ilə müqayisədə bu yol Ağdamla Xankəndi arasında cəmi 18 kilometrdir. Bu gün Ağdama səfərləri çərçivəsində Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, o cümlədən BMT-nin Rezident Əlaqələndirici Ofisinin və BMT-nin digər qurumlarının nümayəndələri də yolun işləkliyinə və yüklərin daşınması üçün hazırlığına şahid olmaq imkanı əldə ediblər".

Soyqırımı ilə bağlı iddiaların da eyni dərəcədə əsassız və yalan olduğunu qeyd edən daimi nümayəndə bildirib ki, Ermənistanın Azərbaycana qarşı manipulyasiya və aldadıcı kampaniyası özünü müstəqil ekspert kimi təqdim edən Luis Moreno Okamponun qondarma "rəyi"ndə də nümayiş olunur.

Onun iddialarının qüsurlu olduğunu bu yaxınlarda müstəqil, tanınmış beynəlxalq hüquq eksperti cənab Rodni Dikson ilkin hesabatında qeyd edib. Cənab Diksonun gəldiyi nəticədə də göstərildiyi kimi, Moreno Okamponun təqdim etdiyi iddialar əsassızdır, natamamdır və qeyri-dəqiqlik nümayiş etdirir. Belə ki, hazırda Azərbaycanın Qarabağ bölgəsində soyqırımı törədildiyini iddia etmək üçün heç bir əsas yoxdur. Konkret olaraq, cənab Dikson hesab edir ki, Okamponun rəyi "faktlar"da açıq şəkildə selektiv yanaşma tətbiq edir, xüsusən də Ermənistanın Azərbaycanın etnik erməni sakinlərini təmin etmək üçün alternativ yollar təkliflərini rədd etməsini bildirməməsi rəyin selektiv xarakterini bir daha sübut edir.

Humanitar bəhanələrlə edilən bu cür manipulyasiyalar artan qanunsuz və təxribat xarakterli hərbi fəaliyyətlərlə eyni zamanda baş verir. Ötən həftələr ərzində beynəlxalq hüququn, o cümlədən Azərbaycan, Rusiya Federasiyası və Ermənistan liderlərinin 10 noyabr tarixli üçtərəfli Bəyanatının 4-cü bənd çərçivəsində Ermənistanın öhdəliyinin kobud pozuntusu olaraq, Azərbaycan ərazisində qeyri-qanuni qalan erməni silahlı qüvvələri hərbi-mühəndislik işlərini və digər hərbiləşmə işlərini daha da artırıb.

Azərbaycanın suveren ərazisində qeyri-qanuni yerləşdirilmiş radioelektron döyüş texnikasından istifadə xüsusi narahatlıq doğurur. Son həftələr ərzində təkcə "Azərbaycan Hava Yolları"nın deyil, xarici ölkələrin mülki təyyarələri də onların təhlükəsizliyi üçün ciddi təhlükə yaradan radioelektron müdaxilələrə məruz qalıb.

Ermənistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirən hərəkətlərinə son qoymalı, daxili işlərimizə qarışmaqdan çəkinməli və münaqişədən sonrakı normallaşma danışıqlarına səmimi şəkildə qoşulmalıdır. Bölgədə davamlı sülh üçün tarixi fürsətin qaçırılmaması həyati əhəmiyyət kəsb edir.

Ermənistan rəhbərliyinin Azərbaycanın, Qarabağ regionu daxil olmaqla, suverenliyinin və ərazi bütövlüyünün tanınması ilə əlaqədar şifahi bəyanatları sülhün həqiqətən də əlçatan olması ilə bağlı ehtiyatlı nikbinliyə zəmin yaratdı. İndi Ermənistan bu bəyanatı real əmələ çevirməli və Azərbaycanın suverenliyini, o cümlədən Qarabağda yaşayan yerli erməni sakinlərinin "humanitar ehtiyacları" bəhanəsi ilə şübhə altına almaqdan çəkinməlidir.

Son bir neçə ay ərzində beynəlxalq tərəfdaşların fəal iştirakı ilə normallaşma prosesinin intensivləşdirilməsi üzrə birgə səylər ümidverici nəticələr verib. Bu diplomatik dialoqlar davamlı sülhün və dövlətlərarası münasibətlərin qurulmasına yönəlmiş gələcək ikitərəfli sazişin bir sıra maddələri üzrə fikir ayrılıqlarının aradan qaldırılmasında və nəzərəçarpacaq irəliləyişin əldə edilməsində həlledici rol oynayıb.

"Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiyası siyasətini həyata keçirir və Azərbaycan Konstitusiyasında və Azərbaycanın imza atdığı bütün müvafiq beynəlxalq insan hüquqları mexanizmlərində nəzərdə tutulmuş bütün hüquq və azadlıqlara zəmanət verir. BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit olunmuş bütün qanuni vasitələrlə suverenliyimizi və ərazi bütövlüyümüzü müdafiə etmək əzmində olduğumuz kimi, qeyd edilən hər iki yola sadiqliyimiz sarsılmazdır.

Əminik ki, beynəlxalq ictimaiyyət və ilk növbədə, Təhlükəsizlik Şurası bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi yolu ilə hər iki ölkənin legitim maraqlarına uyğun olaraq, bərabər və qarşılıqlı hörmətə əsaslanan bu yanaşmanı dəstəkləyəcək", – deyə Y.Əliyev bildirib.

# İqtisadi yüksəlişin strateji hədəfləri

## Milli gəlir artır, yeniləşmə genişlənir, rifah yaxşılaşır

(əvvəli 1-ci səhifədə)

Bütün bu sosial-iqtisadi və siyasi uğurlar qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədərki mərhələdə ölkəmizin iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolu ilə inamla irəliləyir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də diqqətçəkən bir məqamı da xatırlatmaq istərdik. Bu da milli iqtisadiyyatımızın qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən təsirlənə biləcəyi ması makroiqtisadi sabitliyin əsas meyarı olan qiymətlərin aşağı və sabit olmasının gerçəkləşdirilməsi, idarəetmənin institusional çərçivəsinin təkmilləşdirilməsi və maliyyə bazarlarının səmərəli fəaliyyət göstərməsinin təşkilidir. Çünki belə bir sabitlik şəraiti iqtisadiyyatda proqnozları doğruldur, əhalinin yığımlarını dəyərsizləşmədən qoruyur və investisiya artımını reallaşdırır.

Milli iqtisadiyyatın dərin və davamlı şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması məqsədilə özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlıqda işgüzar mühitin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması diqqətdə saxlanılmalıdır. Bunun üçün, ilk növbədə, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalıdır. Yeni və şəffaf özəlləşmə strategiyası gerçəkləşdirilməlidir. Biznesin təşviqi



məsələsi ilə bağlıdır. Elə buna görə də uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi üçün Milli Prioritetlərdə qarşıya bir sıra mühüm vəzifələr qoyulur. Həmin məqsədlər sırasında yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılması xüsusi yer tutur.

Milli Prioritetlərdə, eyni zamanda, şaxələnmiş iqtisadiyyatın dayanıqlılığı üçün qeyri-neft sektorunun payının, dövlətin valyuta ehtiyatlarının artırılması, intizamlı borclanma təşkil edilməsi də böyük əhəmiyyətli vəzifələr kimi diqqətdə saxlanılır. Bunun üçün xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması üçün Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payının tədricən azaldılmasına, məcmu borcun makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinə xidmət etməsinə nail olmaq qarşıya önəmli məqsəd kimi qoyulur.

Sənəddə bildirilir ki, daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi–dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Yeri gəlmişkən, istər daxili, istərsə də xarici borcun qarşılanmexanizmlərinin iqtisadi səmərəsi artırılmalıdır. Vergi və gömrük siyasəti dövlət büdcəsinin xərclərinin təmin edilməsi üçün adekvat imkanlar yaratmaqla yanaşı, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına xidmət etməlidir.

Bütün bu qeyd edilənlərlə bərabər, istər daxili, istərsə də xarici borcun qarşılanmasında Milli Prioritetlərdə vurğulanan aşağıdakı məsələlərə də önəmli istiqamətlər kimi yanaşılmalıdır:

–kapital və sığorta bazarının inkişafı sürətləndirilməlidir;

–milli bank sektorunun dayanıqlığı təmin olunmalı, ona olan etimad yüksəlməli, real iqtisadiyyatın maliyyələşdirilməsində bankların payı artırılmalı və sahibkarlıq fəaliyyətinin inkişafına təkan verməlidir;

–bank kreditlərinin sahibkarlıq fəaliyyəti üçün əlçatanlığını təmin edəcək real işlək mexanizmlər hərəkətə gətirilməli, bank kreditlərinin təminatı məsələlərində bürokratik əngəllər aradan qaldırılmalıdır;

–ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən infrastruktur sahələrinə strateji investorların cəlb olunması təmin edilməlidir;

–dövlət investisiyalarının və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilməli, bu sahədə şəffaflıq səviyyəsi artırılmalıdır.

Sadalananlardan əlavə, dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılmalı, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartları tətbiq edilməli və gəlirlilik səviyyələrinin artırılması təmin olunmalıdır. Nəhayət, gölgə iqtisadiyyatı minimuma endirilməli, özəl və dövlət sektorunda şəffaflıq səviyyəsi ən yüksək standartlara çatdırılmalıdır. İqtisadi idarəetmədə müasir korporativ davranış mədəniyyətinin tətbiqi genişləndirilməli və təşviq olunmalı, korrupsiya ilə mübarizə gücləndirilməli, yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sistemi və etikası formalaşmalıdır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**



Son illər ölkəmizin daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Bundan sonra da həmin sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Xatırladım ki, sözügedən strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

Yeri gəlmişkən, dəyişiklikdən əvvəl müvafiq göstəricilər ümumi dövlət borcunun ÜDM-də payının 20 faiz, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının isə 10 faiz ətrafında saxlanması nəzərdə tutulub. Dövlətimizin başçısının bu ilin ilk altı ayının sosial-iqtisadi yekunları ilə bağlı müşavirədə də vurğuladığı kimi, ötən dövr ərzində qarşıya qoyulan hədəfə nail olunub, xarici dövlət borcu 6,7 milyard dollar olmaqla ÜDM-in, təxminən, 10 faizini təşkil edib.

Qeyd edim ki, müvafiq dəyişikliklərdən irəli gələrək cari ilin sonunadək strategiyada nəzərdə tutulan tədbirlərin nəticə indikatorlarının illər üzrə bölgüsünü müəyyənləşdirən cədvəli yenidən nəzərdən keçirilməklə aralıq və yekun nəticə indikatorlarında da müvafiq dəyişikliklər öz əksini tapacaq.

Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir. Bu məqamda onu da bildirmək istərdim ki, 2023-cü il iyulun 1-ə kimi, daxili dövlət borcu 4 milyard 970,3 milyon manat və ya bu il üzrə proqnozlaşdırılan ÜDM-in 4,5 faizini təşkil edib.

Maliyyə Nazirliyinin bu barədə yaydığı məlumata görə, Azərbaycanın 2023-cü il iyul ayının 1-dək xarici dövlət borcu 6 milyard 576,9 milyon ABŞ dolları və ya 2023-cü il üzrə proqnozlaşdırılan ümumi daxili məhsulun (ÜDM) 10 faizini təşkil edib. Cari ilin ötən dövrü ərzində cəlb edilən vəsaitlər, yerinə yetirilən əsas borc öhdəlikləri, habelə xarici valyuta məzənnələrində baş vermiş dəyişikliklər nəzərə alınmaqla, bu ayın əvvəlinə kimi, xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 116,3 milyon ABŞ dolları və ya 1,7 faiz azalıb.

Yeri gəlmişkən, xarici dövlət borcunun 49,4 faizi 5 ilə qədər, 42,6 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 8 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır. Xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramları üçün cəlb edilmiş kreditlər, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş dövlət qiymətli kağızları üzrə hesabat tarixinə faktiki istifadə olunmuş vəsait üzrə ödənilməmiş qalıq vəsaitdən ibarətdir.

Keçən ilin sonu ilə müqayisədə daxili dövlət borcunun səviyyəsi mütləq ifadədə 782,1 milyon manat məbləğində artıb. Bu artımın əsas səbəbləri isə dövlət borcunun idarə edilməsi strategiyasına uyğun olaraq xarici borcun tədricən əvəzlənərək daxili dövlət borcalmasının həcminin artırılması məqsədilə cari ilin ötən dövrü ərzində xarici dövlət borc üzrə vaxtı çatan əsas borc ödənişlərinin daxili maliyyə bazarında yerləşdirilən dövlət istiqrazları hesabına təkrar maliyyələşdirilməsi, habelə dövlət büdcəsinin xərclərinin bir hissəsinin daxili borclanma hesabına maliyyələşdirilməsi olub.

Daxili dövlət borcunu daxili maliyyə bazarında yerləşdirilmiş dövlət qiymətli kağızları üzrə ödənilməmiş qalıq vəsait təşkil edib. Hesabat tarixinə daxili dövlət borcunun 27,5 faizi 1 illik, 52,1 faizi 2 və 3 illik, 20,4 faizi isə 5 il və daha artıq müddətli dövlət qiymətli kağızlarının payına düşür.

# Azərbaycan neftinin ixracında İtaliya liderdir

*7 ayda 19 ölkəyə 15,5 milyon ton "qara qızıl" satılıb*



**Bu ilin yanvar-iyul aylarında Azərbaycan İtaliyaya 3 milyon 775 min ABŞ dolları dəyərində 6 milyon 47 min ton neft ixrac edib. Bununla da İtaliya ölkəmizin ümumi neft ixracında birinci yerdə qərarlaşıb.**

Dövlət Gömrük Komitəsinin hesabatına əsasən, Azərbaycanın ümumi neft ixracında ikinci yerdə İsrail qərarlaşıb. Hesabat dövründə bu ölkəyə 822 milyon 483 min dollar dəyərində 1 milyon 355 min ton neft ixrac edilib.

Azərbaycanın neft ixracı üzrə siyahıda üçüncü yeri Hindistan tutur. Ötən 7 ayda bu ölkəyə 666 min dollar dəyərində 1 milyon 125 min ton neft ixrac edilib.

Məlumata əsasən, qeyd olunan göstəricilərdə hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb. Siyahıdan göründüyü kimi, hesabat dövründə 19 ölkəyə 9 milyon 446 min dollarlıq 15 milyon 541 ton neft ixrac edilib.

***"Xalq qəzeti"***

# Fermerlər 1 milyon manatdan çox sığorta ödənişi alıblar

**Aqrar Sığorta Fondunun məlumatına görə, (ASF) 2023-cü ilin ilk 6 ayı ərzində fermer və təsərrüfatlara ümumilikdə 1 milyon 175 min manat ödəniş həyata keçirilib. Sığorta ödənişlərinin 742,3 min manatı bitkiçilik, 432,4 min manatı isə kənd təsərrüfatı heyvanlarının sığortası üzrə reallaşıb. Hesabat dövründə bitkiçilik sahəsi üzrə 250-yə yaxın sahibkar və təsərrüfat sığorta ödənişi alıb.**




Bitkiçilik üzrə ən çox sığorta ödənişləri pambıqçılıq sahəsi üzrə olub. Bu sahə üzrə 100 fermer və təsərrüfata 372 042 manat ödəniş edilib. Arpa əkinləri üzrə 85 fermerə 190 684 manat, buğda sahəsi üzrə isə 35 fermerə 158 241 manat ödəniş həyata keçirilib. Heyvandarlıq sahəsi üzrə isə 24 fermer və təsərrüfat sığorta hadisəsi ilə bağlı ödəniş alıb.

Xatırladaq ki, hazırda aqrar sığorta 41 bitki üzrə 29 riskdən təminat verir. Fermerlərə dəstək məqsədilə sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir. Buraya təbiət hadisələri– fırtına, qasırğa, sel, su basmaları, daşqınlar, eləcə də üçüncü şəxslərin hərəkətləri, bitki xəstəlikləri, zərərvericilər və insan faktorundan asılı olmayan müxtəlif hadisələr aiddir.

***"Xalq qəzeti"***

# İlin əvvəlindən ticarətin həcmi 30 milyard dolları ötüb

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyul aylarında Azərbaycan xarici ölkələrlə 30 milyard 333 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 0,9 faiz çoxdur.**



7 aylıq xarici ticarət dövriyyəsinin 20 milyard 777 milyon ABŞ dolları ixracın, 9 milyard 556 milyon ABŞ dolları isə idxalın payına düşüb. Son nəticədə xarici ticarətdə 11 milyard 220 milyon dollarlıq müsbət saldo yaranıb.

***"Xalq qəzeti"***



# Benzin və dizel yanacağına 1 milyard 681 milyon manat xərclənib

***Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar–iyul aylarında Azərbaycanın pərakəndə ticarət şəbəkəsində istehlakçılar tərəfindən təkcə avtomobil benzini və dizel yanacağına 1 milyard 681 milyon manat xərclənib. Bununla da 2022-ci ilin müvafiq ayları ilə müqayisədə istehlakçılara satışdan əldə edilən gəlir 5,7 faiz artıb.***

Bu ilin ötən 7 ayında alıcıların pərakəndə ticarət şəbəkəsində xərclədikləri vəsaitin 5,4 faizi avtomobil benzini və dizel yanacağının alınmasına sərf olunub.

***"Xalq qəzeti"***

# Azərbaycan–Qazaxıstan dəniz yolları Orta Dəhlizin önəmli həlqəsidir

## Bakı Limanı vasitəsilə yükdaşımaların həcmi 15 faiz artıb

**Qazaxıstanın sənaye və infrastruktur inkişafı naziri Marat Karabayevin rəhbərlik etdiyi və Aktau, Kurık limanları müdiriyyətinin də daxil olduğu nümayəndə heyətinin ölkəmizə səfəri zamanı respublikamızla davamlı ticarət axınının reallaşması diqqət mərkəzində olub. Keçirilən görüşlərdə ildən-ilə əhəmiyyəti kəskin artan Orta Dəhliz daxilində əlaqələrin sistemli şəkildə qurulması, habelə ekoloji davamlılığın gerçəkləşməsi ilə bağlı məsələlər də müzakirə olunub. Danışıqlarda cari ilin 7 ayı ərzində Bakı Limanı vasitəsi ilə Qazaxıstan üzərindən yükdaşımaların həcminin 1 milyon tondan çox artdığı, bunun isə 2021-ci ilin analoji dövrünün göstəricisindən 219,1 faiz çox olduğu vurğulanıb.**



Səfərin sonunda Bakı Limanı ilə "Qazaxıstan Dəmir Yolu" Milli Şirkəti arasında əməkdaşlıq barəsində memorandum imzalanıb. Bu sənədə əsasən Asiya–Avropa transkontinental marşrutlar üzrə multimodal daşımaların daha da artırılması, nəqliyyat və logistika sahəsində innovativ həllərin tətbiq edilməsi ilə sürətli yükdaşımalarının artırılmasında qarşılıqlı işgüzar əməkdaşlığın inkişafı məsələləri barəsində bir sıra razılıqlar əldə olunub.

Qeyd edək ki, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin Strateji planlaşdırma və inkişaf departamentinin müdiri Xudayar Həsənlinin verdiyi məlumata əsasən, Qazaxıstan istiqaməti üzrə vaqon aşırılmasının artım tempi 3 dəfəyə yaxındır. Eyni zamanda artım tempi bu ölkə marşrutu ilə hərəkət edən TIR aşırılmasında da iki dəfə artıb.

Qazaxıstan istiqamətində 2021-ci ilin 4 ayında təqribən 5 min TEU konteyner aşırılmışdısa, 2022-ci ilin 4 ayında konteyner aşırılması 10 mini aşıb. Ekspertlər tərəfindən bu, geosiyasi vəziyyətin dəyişməsinin ilkin simptomlarının nəticəsi kimi dəyərləndirilib.

Xatırladaq ki, Bakı Limanı Ələtdə iki əsas nəqliyyat dəhlizinin– Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşir. Bakı Limanının inkişafı 2 mərhələ üzrədir. 2019-cu ildə birinci mərhələnin inkişafı başa çatdırılıb və sonra bu limanda ümumi yükaşırma imkanı artaraq 15 milyon ton ümumi yük və 100 min TEU-ya qədər konteyner olub. İkinci mərhələdə isə liman kompleksinin tikintisinin ikinci mərhələsinin başa çatdırılması ilə Bakı Limanının ümumi yükaşırma imkanı artaraq 25 milyon ton ümumi yük və 500 min TEU-ya qədər konteyner olacaq.

***"Xalq qəzeti"***

# Azərbaycan etibarlı yatırım məkanıdır



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevə Bakının Pirallahı rayonunda "Diamed" dərman istehsalı zavodunun açılışında bu barədə ətraflı məlumat verilib. Qeyri–neft iqtisadiyyatının, o cümlədən sənayeləşmənin inkişafının iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindən biri olduğu bildirilib.

Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində respublikada güclü iqtisadi potensial mövcuddur. Təkcə son 10 il ərzində müasir infrastruktur yaradılması, yüzlərlə müasir müəssisənin fəaliyyətə başlaması da bunun nəticəsidir. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik olan mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır.

İnvestisiya qoyuluşuna marağın artmasını şərtləndirən amillər sırasında iş adamlarına göstərilən güzəştlər də önəmli rol oynayır. Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanuna əsasən, investisiyanın təşviqi sənədini alan şəxslərdən, habelə fərdi sahibkarlardan ölkəyə idxal olunan texnika, texnoloji avadanlıq və qurğulara görə əlavə dəyər vergisi, habelə  gömrük rüsumu tutulmur.

Yeri gəlmişkən,sahibkarlığın inkişafına bu cür əlverişli investisiya mühiti yaradılmasının nəticəsidir ki,  Dünya Bankı indiyədək Azərbaycanla nəqliyyat, kənd təsərrüfatı, sosial, su təsərrüfatı və s. sahələrdə uğurlu əməkdaşlıq həyata keçirib. Adıçəkilən bank ilə birgə reallaşdırılan  bir sıra layihələr, o cümlədən "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi uğurla icra olunub, "Abşeron göllərinin bərpası" layihəsi üzrə isə Dünya Bankı və yerli mütəxəssislərlə birgə iş aparılıb.

Xatırladaq ki, son illərdə sənayenin sürətlə tərəqqisi məqsədilə mövcud təbii və iqtisadi resursların istehsala cəlbi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər həyata keçirilir. Bununla bağlı ixtisaslaşmış sənaye parkları və məhəllələri yaradılır.

Hazırda ölkədə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları) və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri) fəaliyyət göstərir. Həmin kompleks müəssisələrdə sahibkarlığın müasir dünya təcrübəsi əsasında inkişafı üçün əlverişli investisiya mühiti formalaşır. Sənaye parkları və məhəllələrinin rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunur.

İndiyədək sənaye zonalarında rezidentlik statusu verilən 134 sahibkarlıq subyektinin artıq 68-i fəaliyyətə başlayıb. Bu komplekslərə bugünədək 6,56 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb.

Qeyri-neft sənayesinin inkişafında Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2006-cı ildə fəaliyyətə başlayan "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (ASC) də önəmli rol oynayır. Qeyd edək ki,  ASC-nin yaradılmasında əsas məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etməklə, həmçinin öz vəsaiti hesabına müddətli investisiya qoyuluşları vasitəsilə ölkəmizdə iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir.

"Azərbaycan İnvestisiya Şirkəti"nin fəaliyyətinin əsas prioritetləri birbaşa investisiyalar və yeni texnologiyaların Azərbaycana cəlb edilməsi üzrə katalizator olmaq, respublikamızda qeyri-neft sektorunun inkişafına töhfə vermək, habelə iqtisadiyyatın şaxələndirilməsi və idxalı əvəzləyən proseslərə dəstək verməkdir. Şirkətin fəaliyyəti dövründə 27 layihəyə 224 milyon dollar investisiya yatırması və həmin layihələrin 11-nin xarici tərəfdaşlarla birgə icra olunması vurğulanan fikrin bariz ifadəsidir.

Ölkə rəhbərinin açılışında iştirak etdiyi "Diamed" dərman istehsalı zavodunun fəaliyyətə başlaması da respublikada qeyri-neft sektoru çərçivəsində dərman istehsalı sənayesinin inkişafının parlaq nümunəsidir.

Yeri gəlmişkən, dövlətimizin başçısının müvafiq sərəncamı ilə əczaçılıq məhsullarının istehsalı sahəsində ixtisaslaşmış Pirallahı Sənaye Parkında indiyədək 6 müəssisə rezident kimi qeydiyyatdan keçib. Onlardan "R-Pharm" MMC və "Diamed Co" MMC artıq fəaliyyətə başlayıb.

Rezidentlər tərəfindən park kompleksinə 36,6 milyon manatdan çox investisiya yatırılıb, 130-dan çox iş yeri yaradılıb. Növbəti mərhələdə 30 milyon manat investisiyanın qoyulması və daha 250-dən artıq iş yerinin yaradılması nəzərdə tutulub. Bu sənaye parkının rezidentləri tərəfindən indiyədək 37 milyon manatlıq məhsul istehsal olunub.

Ölkəmizdə müasir sənaye müəssisələrinin, yeni istehsal sahələrinin yaradılması nəticəsində daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixrac imkanları genişlənir. Belə müəssisələrdən biri də "Diamed Development Group" MMC-nin Pirallahı rayonunda yaradılan dərman zavodudur. Bir hektar ərazisi olan zavod 3 min kvadratmetr qapalı sahədən ibarətdir.

Yuxarıda adıçəkilən investisiya şirkəti də bu dərman zavodunun tikintisinin maliyyələşdirilməsində iştirak edib. Ümumi dəyəri 15,6 milyon manatdan çox olan "Diamed" müəssisəsində "Azərbaycan İnvestisiya Şirkəti"nin payı 20 faiz həddində müəyyənləşdirilib.

"Diamed"ə dövlət tərəfindən digər dəstək tədbirləri də göstərilib. Belə ki, layihənin reallaşması üçün İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 6 milyon manat güzəştli kredit ayrılıb. Sahibkarlığın inkişafına digər bir dövlət dəstəyi çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi sayəsində isə müəssisə idxal etdiyi avadanlıqlara görə 1,3 milyon manat güzəşt əldə edib.

Müəssisənin layihəsi İsveçrə şirkəti tərəfindən Qabaqcıl İstehsal Təcrübəsinə (GMP), istehsal xətti isə Avropa Farmakopeyasına uyğun olaraq hazırlanıb. Yüksək texnologiya və tam qapalı sistemlə təchiz edilən zavodun istehsal avadanlıqları İtaliya, ABŞ, Almaniya, İsrail kimi ölkələrdən alınıb. İstehsal olunan məhsulların zavoda məxsus müasir laboratoriyada Avropa Farmakopeyasının tələblərinə uyğun mütəmadi olaraq yoxlanılması qərara alınıb.

***V.BİNYATOĞLU,***
***"Xalq qəzeti"***

**Naxçıvan xəbərləri**

## Müasir yaşayış kompleksi



**Naxçıvan şəhərinin Heydər Əliyev prospektində 6,6 hektarlıq boş ərazidə 21 yaşayış binasından ibarət "Nakhchivan Residence"in – "Naxçıvan yaşayış kompleksi"nin inşası planlaşdırılıb.**

Bu barədə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən məlumat verilib. Artıq təsdiq edilən layihə çərçivəsində 2, 3 və 4 otaqdan ibarət 5–9 mərtəbəli binalarda 1100 mənzil inşa ediləcək. Binaların brinci mərtəbəsi qeyri-yaşayış sahəsi olacaq və əsasən xidmət sahələri üçün nəzərdə tutulacaq. Kompleksdə yeraltı və yerüstü avtodayanacaq, uşaq meydançası, basketbol və voleybol meydançaları, yeraltı içməli su anbarları və digər yardımçı sahələr də istifadəyə veriləcək. 2023-cü ilin sonuna başlanması nəzərdə tutulan tikinti işlərində 700-dən artıq muxtar respublika sakini çalışacaq.

Avropa texnologiyalarına uyğun dizayn edilmiş, şəhərin ən əlverişli yerində və ictimai nəqliyyat yollarına yaxın yaşayış kompleksinin tikintisinin birinci mərhələsi 2 ilə, ikinci mərhələsi isə 4 ilə tamamlanacaq.

## Şərurda sənaye məhəlləsi

**Muxtar respublikanın ən böyük rayonu olan Şərur son vaxtlar  görülən işlər nəticəsində öz simasını dəyişmişdir. Hazırda bu istiqamətdə işlər davam etdirlir. Şərur şəhəri indi bir tikinti meydançasını xatırladır.**




Ötən il şəhərin Heydər Əliyev prospektində zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının təməli qoyulub. Hazırda burada tamamlama işləri aparılır. Rayon mərkəzində daha bir yeni yaşayış binasının tikintisi üçün hazırlıq işləri görülür. Şəhərdə yeni avtovağzal binasının tikintisi yekunlaşdırılıb.

Şərur şəhərində son dövrlərdə diqqət mərkəzində olan tikinti obyektlərindən biri də Şərur Sənaye Məhəlləsi üçün yaradılmış kompleksdir. Ötən dövrdə burada 24 istehsal sexi, 6 inzibati və 5 texniki otaqdan ibarət bina və 3 istehsal korpusu inşa olunub. Sənaye məhəlləsinin idarəedici təşkilatına aid otaqların və kiçik ölçülü istehsal və xidmət bloklarının yerləşdiyi inzibati bina 895 kvadratmetr ərazini əhatə edir. İstehsal bloklarının ümumi sahəsi isə 1300 kvadratmetrdir.

12 blokdan ibarət birinci istehsal korpusunda ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel olmaqla, 2 mebel müəssisəsi fəaliyyət göstərir. Hər biri ayrı-ayrı sahibkara məxsus bu müəssisələrdə Türkiyə istehsalı olan avadanlıqlardan istifadə edilir. Korpusun digər 6 blokunda isə rayonun mövcud resurslarından istifadə olunmaqla müvafiq sahələr üzrə sahibkarların cəlb edilməsi üçün araşdırmalar aparılır. 2 hissədən ibarət ikinci korpusda məktəbli ləvazimatları, kağız kisə və karton tara müəssisələri fəaliyyət göstərəcəkdir. Hazırda məhəllənin bitki yağları istehsal sexində quraşdırma işləri davam edir.

***"Xalq qəzeti"***

**Şəfa ocaqları**

# Duzdağ, Diridağ – dirilik çeşmələri

**Naxçıvanın özünəməxsus təbiəti və coğrafi relyefi var. Məsələn, burada yay fəsli quru kontinental iqlimlə müşahidə olunur, qışda isə əksinə, sərt şaxtalı hava hakimdir.**



Muxtar respublikanın relyefində dağlıq və dağlıq-düzənlik ərazilər daha çoxdur. Ölkəmizin digər dağlıq ərazilərindən fərqli olaraq Naxçıvanın bitki örtüyü azdır. Ancaq bu çılpaqlığın özündə də bir hikmət, Uca Yaradanın saysız-hesabsız möcüzələri gizlənir. Hələlik insan oğluna bu möcüzələrin müəyyən bir qismi məlumdur.

Ərazicə kiçik olan bu qədim diyarın köksündə vüqarla dayanmış dağların alt qatlarında nələr yoxdur ki... Onlarla növdə tikinti materialları üçün xammal yataqları,  duz dağları, müxtəlif metal mədənləri, mineral tərkibli bulaqlar, digər təbii zənginliklər. Lakin unutmayaq ki, həyatda ən böyük zənginlik sağlamlıqdır. Sağlamlıq da, insanın yaranışı kimi torpaqdan gəlir.

Elm də sübut edib ki, torpağın birbaşa insana bəxş etdiyi istənilən məhsul sağlam yaşamağın təməlini təşkil edir. Naxçıvanda yetişən meyvə-tərəvəzin özünəməxsus dadı və ləzzəti adla deyilir. Min bir dərdin dərmanı bitkiləri, təmiz havası və saf suyu bu torpağı möcüzələr diyarı adlandırmağa kifayət edir. Naxçıvan torpağı sağlam həyat üçün xeyli sayda müalicə mənbələri ilə də məşhurdur. Belə müalicə ünvanlardan biri də adı Naxçıvanla qoşa çəkilən Duz dağıdır.

6 min il əvvəl - Nuh Peyğəmbər dövründən duz çıxarılmağa başlanılıb. Şöhrəti dünyaya səs salan İpək yolundan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə "Duz yolu" uzanıb. Həmin ölkələrə buradan duz daşınıb. Etnoqrafik məlumatlara əsasən, Duzdağdan açıq üsulla duz əldə edilməsi XX əsrin ortalarına qədər mövcud olub.  Sənaye üsulu ilə Duzdağdan 1927-ci ildən başlayaraq duz çıxarılıb. Bu dağ təkcə saf və təmiz duzuna görə deyil, həm də şəfaverici xüsusiyyətinə görə tanınıb.

1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan Duzdağ Fizioterapiya Mərkəzində hazırda bronxial-astma və ağciyər bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunur. Yer altında duz təbəqənin qalınlığı 8,2 metrə bərabər olan mərkəzdə oksigen və zəngin duz minerallarının yaratdığı hava bir çox xroniki xəstəliklərin müalicəsində əvəzsizdir. Bu sağlamlıq ocağında yaradılmış şərait son illərdə müalicə üçün bura üz tutanların sayının da artmasına imkan verib. Təsadüfi deyil ki, hər il xarici ölkələrdən, eləcə də Azərbaycanın müxtəlif bölgələrindən 4 minə yaxın insan müalicə üçün bura üz tutur.



Naxçıvanın digər təbii müalicə ocaqlarından biri də Darıdağ Arsenli Su Müalicəxanasıdır.  Culfa şəhərindən 8–9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən bu şəfaxanada müalicə, adından da göründüyü kimi, su ilə aparılır. 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli su bir çox xəstəliklərin sağalmasında təbii məlhəmdir.

Darıdağ arsenli suyunun araşdırılması hələ 1830-cu ildə aparılıb. İnsan orqanizmində elə bir toxuma, üzv və sistem yoxdur ki, bu su müalicəvi təsir göstərməklə onun bərpasına səbəb olmasın. Darıdağ suyu qanyaradıcı xüsusiyyətə malik olub, qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığını aradan qaldırır.

Bu su daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə Darıdağ suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin müalicəsində də geniş tətbiq edilir. Darıdağ suyunun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alimlər onun artritlərə müalicəvi təsirini sübuta yetiriblər.

Suyun təsirindən yaraların tez təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik, faqositar və bakteriosit qabiliyyəti ilə əlaqələndirirlər. Müəyyən edilib ki, mərgümüşün litium, brom, maqnezium, radioaktiv elementlər və başqa əhəmiyyətli maddələrlə müştərək təsiri maddələr mübadiləsinin bərpasına, periferik sinir sisteminin fəallaşmasına müsbət təsir göstərir.

Darıdağ suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən "duzlaşma" adlanan patologiyalarda və onun müxtəlif fəsadlarında geniş istifadə olunub. Bu tarixi faktı da qeyd etmək yerinə düşər ki, 1930- cu illərdən malyariyalı xəstələr bu şəfalı sudan istifadə ediblər. Hər il bu müalicəxanaya da xarici ölkələrdən, o cümlədən Azərbaycanın müxtəlif bölgələrindən xeyli sayda xəstələr müraciət edir. Qeyd edək ki, hazırda burada yeni müalicəxana binası tikilir. İşlər tam yekunlaşdıqdan sonra su müalicəsi üçün bura üz tutanlar yüksəksəviyyəli xidmətlərdən istifadə edə biləcəklər.

Muxtar respublika ərazisi təbii və mineral suyu olan bulaqlarına görə də dünyada diqqəti cəlb edən bölgələrdəndir. Bu səbəbdən də Naxçıvanı çox vaxt "Mineral suların təbii muzeyi" adlandırırlar. 5,5 min kvadratkilometrlik sahədə 250-dən artıq mineral su mənbəyi var. Naxçıvanda təbii suların kimyəvi tərkibinin öyrənilməsinə 1843-cü ildən başlanılsa da, bu sahədə planlı kəşfiyyat işləri XX yüzillikdə aparılıb. Aydın olub ki, Naxçıvanda mineral suların 6 tipi, 16 sinfi və 33 müxtəlif növü mövcuddur. Bu suların 98 faizi karbon qazlı olub, hidrokarbonat tipli sulara aid edilir.

Ümumilikdə, Azərbaycanın mineral su ehtiyatlarının 60 faizi Naxçıvan ərazisindədir. Onların hər biri müxtəlif növ xəstəliklərin müalicəsində təsirli vasitələrdən sayılır. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, muxtar respublikanın bu müalicəvi mənbələri sağlamlıq 5turizmi üçün geniş imkan yaradır. Ölkəmizdə müalicəvi turizmin inkişafında Naxçıvan ən perspektivli mərkəzlərdən biridir. Necə deyərlər, sağlamlıq üçün bura üz tutanları Ana Təbiət özü müalicə edir.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

# “Qlobal Cənub”, yoxsa “Kollektiv Qərb”?

**Planetimizdə hərbi-siyasi prosesləri uzun onillər boyu nəzarətində saxlayan “Kollektiv Qərb”ə qarşı hazırda yeni böyük güc mərkəzi formalaşır. Bu, Çin, Hindistan, Braziliya, Cənubi Afrika Respublikası, Meksika və digər ölkələrin də daxil olduğu “Qlobal Cənub”dur.**

Hər iki ad, əsasən, böyük dövlətlərin yerləşdiyi coğrafi məkana görə adlandırılsa da, ümumən şərtidir. Yeni Cənub yarımkürəsində yerləşən Avstraliya və Yeni Zelandiya “Kollektiv Qərbə” aid olunduğu kimi, Şimal yarımkürəsindəki hər hansı bir ölkə özünü “Qlobal Cənub”un sıralarında görə bilər.

Latın Amerikası dövlətləri də qoşulub. Ən gözlənilməz fakt isə odur ki, zəngin neft və valyuta ehtyatlarına malik olan Səudiyyə Ərəbistanı da ara-sıra “Qlobal cənub”a rəğbətini izhar edir. Son aylar ərzində Pekin və Ər-Riyadın siyasi və hərbi cəhətdən yaxınlaşması da Qərbi çox pəjmürdə edib.




Sual olunur: “Qlobal Cənub” və vaxt və necə yaranıb və hansı iddiaları var? Məlumdur ki, 1991-ci ildə SSRİ süqut edəndən sonra planetimizdə ikiqütblü dünyaya son qoyuldu və Yer kürəsinin ən mühüm siyasi, iqtisadi və hərbi problemləri okeanın o tayından, yəni Vaşinqtondan idarə olunmağa başlanıldı.

O dönəmdə bugünkü “Qlobal Cənub”un sələfi olan Üçüncü Dünya ölkələri dünyanın zəngin dövlətləri üçün ucuz xammal və işçi qüvvəsi mənbəyi rolunu oynayırdılar. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və Çin) olmasına baxmayaraq, dünya faktiki olaraq Ağ evin dirijor çubuğu ilə idarə olunurdu.

Anqlo-saksların liderliyi ilə Qərb dövlətləri bu status-kvonu qoruyub saxlamaq üçün planetin müxtəlif yerlərində çox sayda lokal və regional münaqişə və müharibələr törədir və dünyanın başını buna qatırdılar. Bu gün də Ağ ev dünyanı təkbaşına idarə etmək iddiasındadır və rəqib güc mərkəzlərinin meydana çıxmasını özünün milli maraqları üçün ciddi təhdid hesab edir.

Lakin XXI əsrin əvvəllərindən Çin iqtisadi və hərbi cəhətdən sürətlə güclənərək dünyanın ikinci ən böyük iqtisadi və hərbi gücünə çevrildi. Pekin bir çox mühüm göstəricilər üzrə ABŞ-ı daban-dabana izləməyə başladı və bu proses bu gün də davam edir.

Pekin başa düşür ki, “Kollektiv Qərb”ə qarşı təkbaşına mübarizə aparmağa gücü çatmayacaq. Ona görə də öz “komandasını” formalaşdırmağa çalışır. Bu məqsədlə Rusiya, Braziliya, Hindistan və Cənubi Afrika Respublikası–BRİKS adlı təşkilat yaradıldı. Məhz bu qurum hazırda faktiki olaraq “Qlobal Cənub”un əsas nüvəsini təşkil edir.

Vaşinqton “Qlobal Cənub”un nüfuz dairəsinin genişlənməsindən narahatdır və bunun qarşısını almaq istiqamətində ciddi cəhdlər göstərir. Ağ ev də ən çox Hindistanı bu komandadan kənarlaşdırmaq üçün cəhdlər edir. Qərbdə ümid edirlər ki, Çinlə Hindistanın ulduzları heç vaxt barışmayacaq.

“Qlobal Cənub” yerində saymaq niyyətində deyil. Onun sıralarına Meksika və Venesuela da daxil olmaqla, bir çox

Yeri gəlmişkən, iki həftə əvvəl Rusiya–Ukrayna müharibəsinə son qoyulması üçün böyük bir sammitin məhz Ciddədə təşkil olunması çox şeydən xəbər verir. Bu ağır münaqişənin tərəfdaşları sayılan Qərb dövlətləri müharibənin təcili surətdə dayandırılması üçün “Qlobal Cənub”un təpkisi ilə üzləşiblər. Belə mesajlar gələcəkdə daha çox ola bilər.

Məlumdur ki, İkinci Dünya müharibəsi bitəndən sonra yaradılan bütün nüfuzlu beynəlxalq qurumlar, o cümlədən BMT, onun nəzdində fəaliyyət göstərən Təhlükəsizlik Şurası, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, digər qlobal və regional qurumlar onillər boyu ABŞ-ın və onun yaxın müttəfiqlərinin nəzarəti altında olub.

“Qlobal Cənub” bununla razılaşmır və adları çəkilən təşkilatlardan öz fəaliyyətini ədalətli prinsiplər əsasında qurmasını tələb edir. Dünyanın maliyyə bazarlarında ABŞ dollarının dominantlığına qarşı mübarizə kəskin xarakter alır. Hələlik, heç bir milli valyutanın dollara gücü çatmır. Lakin vəziyyətin dəyişə biləcəyi istisna edilmir.

Görünən budur ki, dünya köhnə qanunlarla idarə olunmur, yaxud idarə olunmaq istəmir. TŞ-nin daimi üzvü olan Rusiyanın 15 il əvvəl qonşu Gürcüstana, ilyarım əvvəl isə Ukraynaya qarşı hərbi təcavüzü bir daha göstərdi ki, dünyanın nizamına nəzarət etməyi öhdələrinə götürən böyük dövlətlər özləri bu qaydalara əməl etmirlər.

Bu gün “Kollektiv Qərb”ə qarşı birləşən “Qlobal Cənub” yaxın gələcəkdə ayrı-ayrı güc mərkəzlərinə parçalana bilər. Bir çox təhlilçilər hesab edirlər ki, “Kollektiv Qərb”də birləşən dövlətlər, əsasən, sivil, demokratik dəyərlərə üstünlük verən toplumlardır. “Qlobal Cənub” isə, əsasən, avtoritar dövlətlərdən təşkil olunub. Lakin Qərb demokratiyasının iç üzü də çoxlarına bəllidir.

“Qlobal Cənub”un “Kollektiv Qərb”lə çəkişməsi hansı sonluqla bitəcək? Əvvəlcədən proqnoz vermək çətindir. Çox şey Ukraynadakı müharibənin nəticəsindən asılıdır. Əlahəzrət Zaman özü hər şeyi yerbəyer edəcək.

***Məsaim ABDULLAYEV,*** 
***“Xalq qəzeti”***

**Ekspert rəyi**



**Rüfət RÜSTƏMOV,**
**Bakı Dövlət Universitetinin Türk filologiyası kafedrasının müdiri, professor**

– Müasir dünyanın, həqiqətən, yeni siyasi, hərbi, hüquqi nizama böyük ehtiyacı yaranıb. Planetimizdə hazırda 200 dövlət var. Onların taleyini BMT-nin Təhlükəsizlik Şurasının (TŞ) beş daimi üzvü həll edir. Bu, açıq-aşkar haqsızlıqdır.

Bu gün dünyada türkdilli xalqların sayı təqribi hesablamalara görə üç yüz milyona çatır. Təəssüf ki, onların bir çoxunun müstəqil dövləti yoxdur. BMT üzvü olan türkdilli dövlətlərin isə heç biri TŞ-də təmsil olunmayıb. Halbuki, dünyanın 17-ci iqtisadiyyatı olan Türkiyənin buna tamamilə haqqı çatır.

Son iyirmi ildə görkəmli dövlət xadimi Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə olduqca böyük inkişaf yolu keçib. Rəsmi Ankara dünyanın bir çox bölgələrində haqqın, ədalətin tərəfində duran bir dövlət kimi tanınır. Fədakar türk əsgəri Suriyada, Liviyada terror eleyhinə qətiyyətlə mübarizə aparır.

Çağdaş dünyada rifah və tərəqqinin təlayini modern texnologiyalar həll edir. Türkiyə yeganə müsəlman dövlətidir ki, beşinci sənaye inqilabını yaxalaya bilib. Bu ölkədə artıq ən müasir raketlər, pilotsuz uçuş aparatları, digər modern silahlar istehsal olunur.

Türkiyə həm özünü, həm də müttəfiqlərini hərbi müdaxilələrdən qorumaq iqtidarındadır. Biz 2020-ci ilin payızında 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bunun şahidi olduq. Ankara “can Azərbaycan”a hər cür yardım göstərdi.

Siz soruşa bilərsiniz ki, bu gün Türkiyə kimin –“ Qlobal Cənub”un, yoxsa “Kollektiv Qərb”in yanındadır? Əlbəttə, Türkiyə NATO üzvü olaraq faktiki olaraq ikinci qrumda təmsil olunur. Bununla bərabər, rəsmi Ankara öz milli maraqlarına uyğun olaraq müstəqil və prinsipial siyasi xətt həyata keçirir.

Yaxın gələcəkdə planetimizin siyasi mənzərəsində ciddi dəyişikliklər olacaq. Düşünürəm ki, Vaşinqton və Pekindən əlavə, planetimizdə daha bir neçə güc mərkəzi formalaşacaq. Ümid edirəm ki, qlobal aktorlardan biri məhz bütün türkdilli dövlətləri öz ətrafında birləşdirən Türkiyə olacaq.

Bunun üçün bütün türk dövlətlərinin hərtərəfli inteqrassiyasını sürətləndirmək lazımdır. Biz zamanı qabaqlamağı bacarmalıyıq. Yoxsa rəqiblərimiz bizi üstələyə, öz siyasi iradələrini bizə diktə etməyə çalışa bilərlər. Bu isə yolverilməzdir.

# ABŞ Ukrayna taxılına yeni yol açır

**(əvvəli 1-ci səhifədə)**

Belə bir şəraitdə Ukrayna taxılının xarici bazara çıxarılması çətinləşib. Ukraynalı fermerlər ixrac üçün çox bahalı və mürəkkəb dolama yollar səbəbindən yığılan məhsullarının heç kimə lazım olmayacağından qorxurlar. Digər tərəfdən bu il Ukraynada məhsul yığımı son onillikdə ən aşağı səviyyəyə düşüb. Yaranmış risklər o deməkdir ki, ukraynalı fermerlər yəqin ki, növbəti mövsümdə nə qədər taxıl əkəcəklərini düşünməli olacaqlar.

Ukraynalı aqronom Aleksandr Sivoqorlo bu barədə deyib: “Saziş qüvvədə olduğu dövrdə Misir çox böyük miqdarda taxıl alırdı. Hindistan, Çin, Yaxın Şərq ölkələri də Ukrayna taxılının əsas alıcıları idi. Ukraynada istehsal olunan taxılın ölkə daxilində cəmi 15-20 faizi istehlak edilir, 80 faizi isə ixraca yönəldilir. Hazırda liman infrastrukturu qismən dağıdılıb və blokada şəraitində məhsullarımızı sata bilmirik. İşlədiyim təsərrüfat bu il 4 min 800 ton buğda yığıb. Rusiya Ukraynanın başqa ölkələrə taxıl tədarük etməsinə icazə verən sazişdən çıxdıqdan sonra onu kimə satacağımızı bilmirik”.

İndi Ukrayna taxılının xarici bazara çıxarılmasının yeganə variantı Avropa vasitəsilə daha bahalı avtomobil, dəmir yolu və çay marşrutlarıdır. Bu, qonşu ölkələrin etirazına səbəb olduğu üçün yüklərin daşınması mürəkkəb bir işə çevrilir. Yaranmış vəziyyət isə dünyada ərzaq məhsullarının qiymət artımında özünü göstərir, Türkiyə və Qərbin taxıl tədarükü sazişinin bərpası üçün səy göstərməsinə səbəb olur. Məsələn,

ABŞ Rusiya tərəfindən taxıl müqaviləsi dayandırıldıqdan sonra Ukrayna taxılının alternativ ixrac marşrutlarını yaratmaq üçün Türkiyə, Ukrayna və digər Şərqi Avropa ölkələri ilə danışıqlar aparır. Nə barədə “The Wall Street Journal” nəşri rəsmilərə istinadən yazıb.

Bildirilir ki, Vaşinqtonun dəstəklədiyi plan Ukraynanın oktyabr ayına qədər Dunay boyunca ayda 4 milyon ton taxıl ixrac etməsinə imkan verir. Materialda qeyd olunub ki, taxılın əhəmiyyətli hissəsi Dunay çayı boyunca, eləcə də, Qara dəniz vasitəsilə Rumıniyanın yaxınlığdakı limanlara göndəriləcək. Bundan sonra o, başqa istiqamətlərə aparılacaq. Nəşrin məlumatına görə, bu marşrut daha yavaş və baha olsa da, Qara dəniz dəhlizinə alternativ ola bilər.

Nəşrin yazdığına görə, Birləşmiş Ştatlar Dunaydakı Ukrayna limanlarına gedən və çıxan gəmiləri qorumaq üçün hərbi həll yolları da daxil olmaqla bütün potensial variantları nəzərdən keçirir. Lakin bu variantları açıqlamaqdan və ya hansı ölkələrin iştirak edəcəyini söyləməkdən imtina edir.

Göründüyü kimi, ABŞ Ukraynadan taxıl ixracını təmin etmək üçün müxtəlif variantları, o cümlədən gəmiləri qorumaq üçün hərbi yolu nəzərdən keçirir.

Hadisələrin bu fonunda Ukrayna ilə NATO arasında narazılıq yaranıb. Buna səbəb Şimali Atlantika Müqaviləsi Təşkilatının baş katibinin aparat rəhbəri Stran Yanssenin açıqlaması olub. O bildirib: “Düşünürəm ki, problemin həll yollarından biri Ukraynanın ərazilərindən imtina etməsi və bunun müqabilində NATO-ya üzv olması ola bilər. Ukraynanın müharibədən sonrakı alyans kontekstində gələcək statusu ilə bağlı müzakirələr artıq davam edir. Xüsusilə, Kiyevin ərazisinin bir hissəsindən imtina etməsi də müzakirə mövzusudur: “Mən demirəm ki, belə olmalıdır. Amma bu, ağlabatan bir həll yolu ola bilər”.

NATO rəsmisinin açıqlamasına Ukrayna tərəfi sərt reaksiya verib. Ukrayna Xarici İşlər Nazirliyinin nümayəndəsi Oleq Nikolenko bildirib: “Ərazilərinin bir hissəsindən imtina etmək müqabilində Ukraynanın NATO-ya daxil olması barədə danışmaq qətiyyən qəbuledilməzdir. Həmişə güman edilirdi ki, Alyans Ukrayna kimi əraziləri alver etmir. NATO rəsmilərinin Ukraynanın öz ərazilərindən imtina etməsi ehtimalı ilə bağlı rəvayətin formalaşmasında şüurlu və ya şüursuz iştirakı Rusiyanın xeyrinə işləyir”.

Ukraynanın sərt cavabından sonra NATO Stran Yanssenin açıqlamasını şərh etməli olub: “NATO-nun mövqeyi aydındır və dəyişməzdir. Biz Ukraynanın suverenliyini və ərazi bütövlüyünü tam dəstəkləyirik, bunu NATO liderləri iyulda Vilnüs sammitində təkrarladılar. Nə qədər vaxt aparsa da, biz Ukraynanı dəstəkləməyə davam edəcəyik. Biz ədalətli və davamlı sülhə nail olmaqda qərarlıyıq. Sülhün nə vaxt və hansı şərtlərlə əldə olunacağına Ukrayna qərar verəcək. Müharibənin təkrarlanmaması üçün təhlükəsizlik tədbirlərinə ehtiyac olduğu aydındır”.

***Pünhan ƏFƏNDİYEV,*** 
***“Xalq qəzeti”***

**ABŞ, Yaponiya və Cənubi Koreyanın diplomatik departamentlərinin rəhbərləri çərşənbə axşamı onlayn görüş keçirərək, üç dövlətin liderlərinin avqustun 18-də Kemp Deviddə keçirilməsi planlaşdırılan sammitinin yekun detallarını razılaşdırıblar. Vaşinqtonun planına görə, bu alyans Hind-Sakit okean regionunda qüvvələr balansını kökündən dəyişəcək. Öz növbəsində Çin və Rusiya narahatdırlar ki, yeni alyans təkcə ABŞ-ın Yaponiya və Cənubi Koreya ilə hərbi-texniki əməkdaşlığının artmasına gətirib çıxarmayacaq, o həm də hər iki ölkənin qısa olaraq AUKUS adlanan Avstraliya, Böyük Britaniya və ABŞ-ın üçtərəfli hərbi alyansına qoşulmasına şərait yaradacaq.**

ABŞ dövlət katibi Entoni Blinkenlə Yaponiya və Cənubi Koreyanın xarici işlər nazirləri Yoşimasa Hayaşi və Pak Çin arasında danışıqlar ABŞ prezidenti Co Baydenin Yaponiya baş naziri Fumio Kişidanı və Cənubi Koreya prezidenti Yun Seok-Yolu qəbul edəcəyi Kemp-Devid sammiti öncəsində müzakirə olunacaq məsələlərin dəqiqləşdirilməsi nöqteyi-nəzərindən qiymətləndirilir. Tərəflər qarşıdan gələn görüşü əməkdaşlığın yeni mərhələsi adlandırırlar. Bunun mənasını Yaponiya mediasına ABŞ-ın Tokiodakı səfiri Rahm Emanuel izah edib.

lun çərşənbə axşamı Koreya yarımadasının azad edilməsinin 78-ci ildönümü münasibətilə etdiyi çıxış oldu. Xatırladaq ki, 1945-ci il avqustun 15-də imperator Hirohito müraciət edərək, ölkənin müharibəni davam etdirə bilməyəcəyini etiraf etmiş və Tokiodan qeyd-şərtsiz təslim olmağı tələb edən Potsdam bəyannaməsinin şərtlərini qəbul etmişdi. “İndi Yaponiya ümumbəşəri dəyərləri paylaşdığımız və ümumi maraqlara malik olduğumuz tərəfdaşımızdır. Koreya Respublikası və Yaponiya təhlükəsizlik və iqtisadi əməkdaşlıq sahəsində tərəfdaşdırlar. Biz gələ-

# AUKUS genişlənir?

## Vaşinqton,Tokio və Seul münasibətlərində yeni mərhələyə hazırlaşırlar



Amerikalı səfirin sözlərindən belə qənaətə gəlmək olur ki, üç dövlətin liderləri bu cür sammitləri mütəmadi olaraq keçirmək, onları ayrıca qarşılıqlı fəaliyyət formatına çevirmək qərarına gələcəklər. Cənab Emanuelin sözlərinə görə, “bu hadisə Hind-Sakit Okean regionunda strateji atmosferi kəskin şəkildə dəyişəcək” və 2007-ci ildə Avstraliya, Hindistan, ABŞ və Yaponiyanı birləşdirən Dördtərəfli Təhlükəsizlik Dialoqunun (QUAD) yaradılması ilə müqayisə oluna bilər: “İllik birgə təlimlərin keçirilməsi, məxfi məlumatların mübadiləsi və kibertəhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi barədə razılıq əldə olunacaq”.

Yaponiyanın “Yomiuri” qəzeti isə Tokiodakı məlumatlı mənbələrə istinadən yazır ki, prezident Bayden və baş nazir Kişida arasında Kemp-Deviddə ayrıca görüş zamanı iki ölkə liderləri hipersəs silahlarının qarşısını almaq üçün sistemlərin birgə hazırlanması barədə razılığa gələ bilərlər. İyun ayında iki ölkənin müdafiə rəhbərləri Lloyd Austin və Yasukazu Hamada ABŞ və Yaponiyanın hipersəs raketlərinin qarşısının alınması sisteminin imkanlarını gücləndirmək üçün artıq birgə işə başladığını bildirmişdilər. Bundan əlavə, ötən ilin sonunda Yaponiya KİV-i yazmışdı ki, ABŞ və Yaponiya hipersəs ballistik raketlərin qarşısını almaq üçün birgə texnologiyaların yaradılması imkanlarını araşdırırlar. Layihə uğurla həyata keçirilərsə, o zaman raket əleyhinə qurğular Amerikanın çoxfunksiyalı “Aegis” sistemi ilə təchiz edilmiş yeni hərbi gəmilərə yerləşdiriləbilər. İlk belə hərbi gəmi 2027-ci ilin, ikincisi isə 2028-ci ilin yazında istifadəyə verilməlidir. “Kyodo” agentliyi də Yaponiya hökumətindəki mənbələrinə istinadən xəbər verir ki, Vaşinqton və Tokio tərəfindən yaradılan yeni tipli raketlər “Şimali Koreya, Çin və Rusiya tərəfindən hazırlanmış hipersəs silahlarının qarşısını almaq üçün nəzərdə tutulub”.

Siyasi müşahidəçilər vurğulayırlar ki, Yaponiya və Cənubi Koreya arasında münasibətlərdə uzun müddət davam edən soyuqluğun başa çatması Vaşinqton, Tokio və Seul arasında müttəfiqliyin yaranmasına imkan yaradan əsas amillərdən biridir. Tokio və Seul üçün qarşılıqlı iddiaların və qalmaqalların vaxtının bitdiyinə dair siqnal prezident Yun Seok-Yo-

cək üçün birgə çalışaraq dünya sülhü və rifahına birgə töhfə verə bilərik”, - deyə Cənubi Koreya lideri vurğulayıb. Eyni zamanda Vaşinqtonla qarşılıqlı əlaqə formatını ayrıca qeyd edən cənab Seok-Yeol bildirib ki, Koreya Respublikası, ABŞ və Yaponiya arasında əməkdaşlığın regionda və Koreya yarımadasında əhəmiyyəti gündən-günə artır: “Şimali Koreyanın nüvə raket təhdidi ilə təməl səviyyədə mübarizə aparmaq üçün Pxenyanın nüvə raket potensialı haqqında məlumat mübadiləsi və Koreya Respublikası, ABŞ və Yaponiyanın kəşfiyyat vasitələri sahəsində sıx üçtərəfli əməkdaşlığı lazımdır”.

Pekin və Moskva ABŞ-ın Hind-Sakit okean regionunda daha bir ittifaqın yaradılmasına narahatlıqla reaksiya veriblər. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Vanq Venbin bildirib ki, “Çin bu ölkələrin kiçik qruplar yaratmasına, qarşıdurmanın artmasına gətirib çıxaran və digər dövlətlərin strateji təhlükəsizliyinə xələl gətirən hərəkətlərə qarşıdır”. Rusiyanın BMT-də və Cenevrədəki digər beynəlxalq təşkilatlardakı daimi nümayəndəsi Gennadi Qatilov “İzvestiya” qəzetinə müsahibəsində vurğulayıb ki, Kemp-Deviddə Avstraliya, Böyük Britaniya və ABŞ-ın üçtərəfli Alyansı olan AUKUS-un genişləndirilməsi ilə bağlı ilkin razılaşmalar əldə edilə bilər: “Vaşinqtonun Seul və Tokio ilə hərbi-texniki və elmi-texnoloji əməkdaşlığının intensivləşməsi AUKUS çərçivəsində həyata keçirilən layihələrə qarşılıqlı əlaqəni asanlaşdırır və buna görə də Cənubi Koreya və Yaponiyanın tərəfdaşlığa qoşulmasını olduqca real edir. Gennadi Qatilov AUKUS-un yaradılmasını “blok təfəkkürünün təzahürlərindən biri” adlandıraraq, “Vaşinqton və onun ən yaxın müttəfiqlərinin bundan imtina edə bilmədiklərini” iddia edib.

Bəzi mənbələrə görə, AUKUS-a Hind-Sakit okean regionunda sabitliyin və naviqasiya azadlığının qorunmasında maraqlı olan digər ölkələr də qoşula bilər. Onların arasında Yaponiya, Hindistan, Kanada, Yeni Zelandiya və s. ölkələrin olduğu qeyd edilir. Lakin bu ölkələrdən alyansa qoşulmaq istəkləri və ya AUKUS üzvlərindən alyansın genişləndirilməsinin mümkünlüyü barədə hələlik rəsmi açıqlama yoxdur.

***S.ELAY, “Xalq qəzeti”***

# Danimarkalı nazir Quranın yandırılmasına görə üzr istəyib

**Danimarkanın xarici işlər naziri Lars Lökke Rasmussen müsəlman ölkələrinin Kopenhagendəki diplomatik nümayəndəlikləri qarşısında Quranın yandırılması ilə bağlı insidentlərə görə üzr istəyib. Bu barədə Danimarka Xarici İşlər Nazirliyinin məlumatında deyilir.**



Məlumata görə, Rasmussen Əlcəzairin xarici işlər naziri Əhməd Attaf ilə telefon danışığı aparıb.

Danimarkalı nazir müsəlman ölkələrinin, o cümlədən Əlcəzairin diplomatik nümayəndəliklərinin binaları qarşısında müsəlmanlar üçün müqəddəs “Quran-i-Kərim”in yandırılması ilə bağlı hadisələrdən təəssüfləndiyini bildirib.

Rasmussen Quranın yandırılmasını qəbuledilməz hadisə adlandırıb və üzr istəyib. Onun sözlərinə görə, belə hadisələr Danimarka cəmiyyətindəki tolerantlıq ənənələrinə tamamilə ziddir.

Siyasətçi, həmçinin qeyd edib ki, Danimarka hökuməti bu cür hərəkətləri qadağan edən qanun layihəsini yekunlaşdırır.

***Leyla HADİ,*** 
***tələbə-jurnalist***

# “Azərişıq”ASC

## “Ağdam rayonunun Xıdırlı, Sarıcalı və Kəngərli kəndlərinin xarici elektrik təchizatının təmin olunması məqsədilə 35 kV-luq elektrik verilişi xəttinin çəkilməsi” işlərinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1.“Azərişıq” ASC-nin “Ağdam rayonunun Xıdırlı, Sarıcalı və Kəngərli kəndlərinin xarici elektrik təchizatının təmin olunması məqsədilə 35 kV-luq elektrik verilişi xəttinin çəkilməsi” işlərinin satın alınması.

İştirak haqqı 1500 manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat- “Azərişıq” ASC
H\h- AZ83AIIB33020029441802068118
VÖEN- 9900069391
Benefisiar Bank- “Kapital Bank” ASC-nin Gənclik filialı
Kod- 200189
VÖEN:- 9900003611
M\h - AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
Əlaqələndirici şəxs- Namik Heybətov.
Əlaqə telefonu (şəhər). 012 440 39 93 (daxili 92-19) .
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan- AZ1009, Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

**1.** Tenderdə iştirak etmək üçün yazılı müraciət.
**2.** Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
**3.** İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə.(sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**4.** İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış. (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**5.** Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış. (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**6.** İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
**7.** İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı.
**8.** İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
**9.** İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki).
**10.** İddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, eləcə də analoji işlərdə təcrübəsi haqqında məlumat.
**11.** İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilən sahədə peşəkarlığının, iş təcrübəsinin, texniki və maliyyə imkanlarının, elektrik mühəndislərinin əmək müqavilələrinin, işçi qüvvəsinin və idarəetmə səriştəsinin olması vacibdir. Bununla yanaşı “PODRATÇI” son üç ildə elektrik stansiyalarının, xüsusilə 35kV-luq elektrik verilişi xətlərinin tikintisi və yenidənqurulması üçün hər birinin ümumi məbləği 5 milyon manatdan az olmamaq şərtilə ən azı 3 oxşar layihənin icrasını başa çatdırmış olmalı və təsdiqedici sənədləri təqdim etməlidir.
**12.** Müvafiq lisenziya və icazələr.
**13.** Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
**14.** Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
**15.** Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
**16.** Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 sentyabr 2023-cü il saat 15.00-a , ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 28 sentyabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 sentyabr 2023-cü il saat 15.00-da Bakı,Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***“AZƏRİŞIQ” ASC-nin tender komissiyası***


# İstiqlal şairi yad edildi

**Dünən Şəkidə Xalq şairi, müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin xatirəsinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.**



ADPU-nun Şəki filialının direktoru, dosent Rafik Rəsulov çıxış edərək bildirilib ki, Bəxtiyar Vahabzadə XX əsrdə Azərbaycan xalqının yetişdirmiş olduğu bənzəri olmayan söz ustadı, filosof, dramaturq, publisist və azadlıq fədaisi kimi həmişə sevilib. Şəki ziyalıları beynəlxalq konfransın məhz bu şəhərdə keçirilməsini böyük şairin xatirəsinə olan dərin hörmət və ehtiramın ifadəsi kimi dəyərləndirirlər. Çünki Bəxtiyar Vahabzadə Şəkidə doğulub boya-başa çatıb və bu şəhərə həddindən artıq bağlı bir insan olub.



AMEA-nın Folklor İnstitutunun “Dədə Qorqud” şöbəsinin müdiri, professor Ramazan Qafarlı, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva və başqaları Bəxtiyar Vahabzadənin Azərbaycanda söz sənətinin inkişafındakı xidmətlərindən danışıb, şairin yaradıcılığının müxtəlif məqamlarına toxunublar.


## “Lənkəran Cihazqayırma” ASC səhmdarlarının nəzərinə!

2023-cü il sentyabrın 30- u saat 12.00-da “Lənkəran Cihazqayırma” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ünvan- Lənkəran şəhəri, S.Bayramov küçəsi 10 (inzibati bina).

**Yığıncağın gündəliyi:**
**1.** Cəmiyyətin ləğv olunması.
**2.** Cəmiyyətin ləğv olunması ilə əlaqədar ləğvetmə komissiyasının (təsviyəçinin) təyin edilməsi və ona müvafiq səlahiyyətlərin verilməsi.
**3.** Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

## BİLDİRİŞ

“AZƏRİŞIQ” ASC tərəfindən 2023-cü il iyulun 18-də Tovuz rayonu ərazisində 110/35/10 kV "Tovuz Şəhər" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması və giriş-çıxış xətlərinin köçürülməsi işlərinin satın alınması üçün açıq tender üsulu ilə keçirilmiş müsabiqədə tender komissiyasının qərarına əsasən “ENERJI CONSTRUCTION” QSC qalib elan olunmuşdur. Qalib təşkilatla ƏDV daxil olmaqla 12 331 466,47 manat (on iki milyon üç yüz otuz bir min dörd yüz altmış altı manat 47 qəpik) məbləğində müvafiq podrat müqaviləsi imzalanmışdır.

## BİLDİRİŞ

“AZƏRİŞIQ” ASC tərəfindən 2023-cü il iyulun 17-də Mingəçevir şəhəri ərazisində yerləşən mövcud 35/6 kV-luq 2x10 MVA gücündə "Karxana" yarımstansiyasının 110/35/6 kV-luq 2x40 MVA gücündə yenidən qurulması və 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi işlərinin satın alınması üçün açıq tender üsulu ilə keçirilmiş müsabiqədə tender komissiyasının qərarına əsasən “Smart Energy Services” MMC qalib elan olunmuşdur. Qalib təşkilatla ƏDV daxil olmaqla 14,987,836.45 (on dörd milyon doqquz yüz səksən yeddi min səkkiz yüz otuz altı manat 45 qəpik) məbləğində müvafiq podrat müqaviləsi imzalanmışdır.

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

### ASCO-nun tabeliyindəki idarələrə tələb olunan süzgəclərin satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il avqustun 23-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

**Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**

TƏKRAR

# “Azərişıq”ASC

## “Abşeron rayonunun Xırdalan şəhəri ərazisində yerləşən mövcud 110/10 kV-luq “Əliağa Vahid” yarımstansiyasının 110/35/10 kV-luq 2x25 mVA gücündə yenidən qurulması” işlərinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1. “Azərişıq” ASC “Abşeron rayonunun Xırdalan şəhəri ərazisində yerləşən mövcud 110/10 kV-luq “Əliağa Vahid” yarımstansiyasının 110/35/10 kV-luq 2x25 mVA gücündə yenidən qurulması” işlərinin satın alınması.

İştirak haqqı 1500 manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat- “Azərişıq” ASC
H/h- AZ83AIIB33020029441802068118
VÖEN- 9900069391
Benefisiar Bank- “Kapital Bank” ASC-nin Gənclik filialı
Kod- 200189
VÖEN- 9900003611
M/h- AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
Əlaqələndirici şəxs- Namik Heybətov.
Əlaqə telefonu (şəhər)- 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan- AZ1009. Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə;
(sənədlərin təsdiqi tender elanı dərc edilən tarixdən sonra notarial qaydada təsdiq olunması zəruridir.).

**1.** İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış; (sənədlərin təsdiqi tender elanı dərc edilən tarixdən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**2.** Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış; (sənədlərin təsdiqi tender elanı dərc edilən tarixdən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**3.** İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
**4.** İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı.
**5.** İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənədi.
**6.** İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki sənədlər).
**7.** İddiaçının son 3(üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat.
**8.** İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd olunan sahədə peşəkarlığının, iş təcrübəsinin, texniki və maliyyə imkanlarının, elektrik mühəndislərinin əmək müqavilələrinin, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olmağı vacibdir. Bununla yanaşı “PODRATÇI” son üç ildə elektrik stansiyalarının, xüsusilə 110kV-luq yarımstansiyaların, elektrik verilişi xəttlərinin tikintisi və yenidənqurulması üçün hər birinin ümumi məbləği 5 milyon manatdan az olmamaq şərtilə ən azı 3 oxşar layihənin icrasını başa çatdırmış təsdiqedici sənədləri təqdim etməlidir.
**9.** Müvafiq lisenziya və icazələr.
**10.** Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
**11.** Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
**12.** Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)
**13.** Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır)

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 sentyabr 2023-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 sentyabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 sentyabr 2023-cü il saat 15.00-da Bakı, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***“AZƏRİŞIQ” ASC-nin tender komissiyası***

# “Azərişıq”ASC

## 0,4kV-110kV elektrik ötürücü xətlərində elektrik axınının mühafizəsi, ölçülməsi və sabit saxlanılması üçün zəruri ölçü cihazlarının və avadanlıqların satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1.“Azərişıq” ASC-nin 0,4kV-110kV elektrik ötürücü xətlərində elektrik axınının mühafizəsi, ölçülməsi və sabit saxlanılması üçün zəruri ölçü cihazlarının və avadanlıqların satın alınması.

İştirak haqqı 1500 manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat- “Azərişıq” ASC
H\h- AZ83AIIB33020029441802068118
VÖEN- 9900069391
Benefisiar Bank- “Kapital Bank” ASC-nin Gənclik filialı
Kod- 200189
VÖEN- 9900003611
M\h- AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
Əlaqələndirici şəxs- Emil Əliyev.
Əlaqə telefonu (şəhər)- 012 -440- 39 -93 (daxili 92-62) .
Elektron poçt: emil.aliyev@azerishiq.az
Ünvan- AZ1009, Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

**1.** Tenderdə iştirak etmək üçün yazılı müraciət.
**2.** Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
**3.** İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə. (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**4.** İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış. (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**5.** Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış. (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**6.** İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti. (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
**7.** İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı. (sənədlərin təsdiqi tender elanı tarixindən sonra Notarial qaydada təsdiq olunması zəruridir.)
**8.** İddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
**9.** İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı ((əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki).
**10.** İddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar,eləcə də analoji işlərdə təcrübəsi haqqında məlumat.
**11.** Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
**12.** İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilən sahədə peşəkarlığının, iş təcrübəsinin, texniki və maliyyə imkanlarının, elektrik mühəndislərinin əmək müqavilələrinin, işçi qüvvəsinin və idarəetmə səriştəsinin olması vacibdir. Bununla yanaşı “SATICI” son üç ildə 0,4kV-110kV elektrik ötürücü xətlərində elektrik axınının mühafizəsi, ölçülməsi və sabit saxlanılması məqsədilə zəruri ölçü cihazlarının və avadanlıqların satın alınması üçün hər birinin ümumi məbləği 3 milyon manatdan az olmamaq şərtilə ən azı 3 oxşar layihənin icrasını başa çatdırmış olmalı və təsdiqedici sənədləri təqdim etməlidir.
**13**. Müvafiq lisenziya və icazələr.
**14.** Rəsmi distribütor və diler müqaviləsi və ya məktub.
**15.** Ən azı 2 şirkətdən tövsiyyə məktubu təqdim olunmalıdır.
**16.** Satınalınan mal-materialların nümunələri təqdim olunmalı və təqdim olunan mal-materiallara 3-5 il ərzində zəmanət verilməlidir. (Çin Xalq Respublikasının mal-materialları təqdim edilməməlidir)
**17.** Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr)
**18.** Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)
**19.** Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır)
**20.** Təklif olunan mallar əsas şərtlər toplusunda qeyd edilən parametrlərə tam cavab verməlidir.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 sentyabr 2023-cü il saat 15.30-a , ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənib imzalanmış ikiqat zərfdə 28 sentyabr 2023-cü il saat 15.30-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 sentyabr 2023-cü il saat 15.30-da Bakı, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***“AZƏRİŞIQ” ASC-nin tender komissiyası***

SON SƏHİFƏ
Xalq qəzeti
Xalqın qəzeti!
№ 174 (30290) 17 avqust 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

# Paralimpiya çempionatında növbəti medal




**Azərbaycan idmançıları Avropa Paralimpiya çempionatının doqquzuncu günündə taekvondo, kamandan oxatma və badminton idman növləri üzrə güclərini sınayıblar.**

Taekvondoçumuz İmaməddin Xəlilov (70 kq, K44) yarışda inamla çıxış edərək qızıl medal qazanıb. Bundan əvvəl taekvondoçularımız Röyalə Fətəliyeva (52 kq, K44) gümüş, Amin Şıxalıyev (63 kq, K44), Sabir Zeynalov (58 kq, K44) bürünc medala layiq görülüblər.

Cüdoçular isə çempionatı 2 qızıl, 3 gümüş və 2 bürünc medalla başa vurublar.

# Böyük hesablı qələbə



**Niderlandın Eyndhoven şəhərində yeniyetmələrin Ümumdünya Şahmat Olimpiadasında 6-cı turun oyunları keçirilib.**

Read Səmədov, Xaqan Əhməd, Cahandar Azadəliyev və Nərmin Abdinovanın birgə mübarizə apardığı Azərbaycan millisi növbəti oyunda “Niderland 3” komandası ilə üz-üzə gəlib. Qarşılaşma komandamızın 4:0 hesablı qələbəsi ilə başa çatıb.

Yarışda 47 ölkədən 63 komanda mübarizə aparır.

# Nicat Abasov yarımfinalda

**Bakıda şahmat üzrə Dünya kuboku yarışının dörddəbir mərhələsinin cavab oyunları keçirilib.**



Ağ fiqurlarla hindistanlı şahmatçı Santoş Vidita qarşı mübarizə aparan Azərbaycan təmsilçisi Nicat Abasov matçda qalib gələrək yarımfinala çıxıb.

Dünya kubokunun hər mərhələsi 3 gün davam edir – 2 gündən sonra taybrek nəzərdə tutulub.

*Leyla SABİRQIZI, “Xalq qəzeti”*

Texnologiya yenilikləri



# Plastik tullantıdan sabun

**Virciniya Texnologiya İnstitutunun mütəxəssisi Guoliang Liu polietileni sabunun, yuyucu vasitələrin və digər məhsulların istehsalında istifadə edilən yağ turşularına çevirməyin üsulunu kəşf edib. Bu, plastik tullantıları təkrar emal etməklə yanaşı, həmçinin gigiyena vasitələrinin istehsalındakı xərcləri aşağı salacaq.**

Polietilen və polipropilen plastik materiallar arasında geniş yayılmış növlərdir. Hər iki növ plastik tullantıların yarısını təşkil edir. Bu isə il ərzində 200 milyon tona yaxın plastik tullantı deməkdir. Tullantıların 80 faizi zibilxanalara atılır, 10 faizi isə təkrar emal edilir.

Qeyd edək ki, mütəxəssisin yeni üsulu nəzəri cəhətdən 200 milyon ton plastik tullantını saysız-hesabsız sayda sabuna çevirə biləcək.

*Səadət RZAYEVA, “Xalq qəzeti”*

# Anlayan və duyan robot

**Xiaomi “CyberDog” səsli əmrləri qəbul etmək üçün müxtəlif funksiyaları yerinə yetirə bilən yeni məhsulunu təqdim edib.**




Robot süni intellekt ilə dəstəklənən kamera, 4 ToF sensoru, RGB kamera, LiDAR sensoru, balıqgözü obyektiv və güc sensoru kimi görmə, toxunma və eşitmə qabiliyyətini təkmilləşdirən bir sıra xüsusiyyətlərə malikdir. Yeni məhsulun qiyməti “təxminən” 1800 dollar olaraq müəyyən edilib.

*F. SALMANOVA, “Xalq qəzeti”*

Maraq dünyamız

# Əcdadımız soyqırımına uğrayıb

**Dinlə mübarizədə sovet insanlarının başına bir fikir yerləşdirmişdilər: insan meymunlardan törəyib. Sonra bu fikir düzəldildi: yox, meymundan deyil, amma müasir meymunlarla ortaq əcdadımız var. İndi isə dünyanın mənzərəsi daha da mürəkkəbləşib. Müasir insanın əcdadı qədimdə yeganə varlıq olmayıb. Ən azı neandertallar və denisovlular var idi, ancaq “Homo sapiens” (Ağıllı insan) sağ qaldı!**



Biologiya elmləri doktoru Mixail Gelfand deyib: “Avropalıların və Yaxın şərqlilərin genomunda genlərin, təxminən, 2–4 faizi neandertala uyğundur. Yəni bizim uzaq əcdadlarımız neandertallarla qarışıb. Və denisovluların DNT analizi göstərdi ki, onların genlərinin 6 faizə qədəri bu gün Melaneziya və Avstraliya aborigenlərində tapılır. Bu və digər faktlar bizə deyir ki, vaxtilə planetdə müxtəlif tipli insanlar birgə yaşayıb, lakin nədənsə yalnız “Homo sapiens” sağ qalıb. “Növ” sözü çox düzgün deyil, amma hələlik başqa bir termin yoxdur”.

Üstəlik, böyük bir DNT bankının təhlili göstərir ki, müasir insanların DNT-sində elmin heç nə bilmədiyi ən azı daha bir “tip” insanların genetik izləri var. Onların qalıqları hələ də tapılmayıb.

Neandertalların və denisovluların niyə yoxa çıxdığı da aydın deyil. Versiyalardan birinə görə, bu, sivilizasiya tarixində ilk soyqırımı idi.

*P.ƏFƏNDİ, “Xalq qəzeti”*

# “Lada”nın yeni versiyaları

**“Lada Granta Club” sedanı və “Lada Granta Quest” kross-universalı yenidən şirkətin saytında yerləşdirilib. Onlar əsas versiyadan xüsusi emblemi və oturacaqların orijinal üzlənməsi ilə fərqlənirlər.**



Çarpaz vaqon “Lada Granta Quest” avtomobili həmçinin orijinal təkərlər və qara rəngli güzgülər, qızdırılan ön şüşə və parkinq sensorları ilə təchiz olunub. Digər modifikasiyadan qara dam və dam relsləri ilə fərqlənir.

Qeyd olunur ki, avqustun əvvəlində AvtoVAZ rekord satışlar elan edib. İlin əvvəlindən şirkət 173 min avtomobil satıb ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

*Aytən NƏCƏFOVA, “Xalq qəzeti”*

# Rusiyalı turistlər Azərbaycanı seçir

**Bu ölkənin turistləri 2023-cü ildə uzunmüddətli yay tətili üçün ən çox Türkiyə, Azərbaycan və Tailandı seçiblər.**



Rusiyanın məşhur turizm şirkəti “Yandex Travel”in araşdırmalarından məlum olub ki, şimal qonşumuzun səyahət həvəskarları üçün Türkiyə, Azərbaycan, Tailand, İsrail və Vyetnam bu ilin yay aylarında uzunmüddətli səfərlər üçün ən cəlbedici ölkələrdir.

Ötən ilin yayı ilə müqayisədə bu il Türkiyəyə uzunmüddətli səfərlərlə bağlı göstərici 1,5 dəfə, Azərbaycan və Tailanda isə 2 dəfə artıb.

*Zülfiyyə QURBANƏLİQIZI, “Xalq qəzeti”*

Sağlamlıq

# Dəfnə yarpağı – məlhəm dəfinəsi

**Mütəxəssislər bildirirlər ki, dəfnə yarpağı mədə-bağırsaq sistemi ilə yanaşı, ürək-damar sisteminə də müsbət təsir edir. Onun tərkibində olan üzvi birləşmələrin faydaları çoxdur. Bunlar hansılardır?**



**1.** Dəfnə qıcıqlanmış bağırsaq sindromunu sakitləşdirir, pozulmuş həzmi bərpa edir. Tərkibində olan fermentlər həzmi yaxşılaşdırır.

**2.** Diabetlər üçün insulin funksiyasını artırır, hipoqlikemiyanın qarşısını alır.

**3.** Əsəbi və nevroz olanlar da dəfnə çayı içə bilər. O, stress və təşviş hallarını aradan qaldırır, yuxusuzluğu müalicə edir.

**4.** Dəfnə yarpaqlarında olan rutin və turşular kapilyarların divarını möhkəmlədir, zərərli xolesterini azaldır, əzələ iltihabı ilə mübarizə aparır.

**5.** Revmatizm xəstəliyi zamanı yaranan iltihabı azaldır.

**6.** Bu bitki A, C vitaminləri ilə zəngin olduğundan immuniteti də yüksəldir.

*Z.HÜSEYNLİ, “Xalq qəzeti”*

Proqnoz

# Dağlıq ərazilərdə yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, **avqustun 17-də Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, axşam cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 33-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət gecə 70-80 , gündüz 30-40 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-25°, gündüz 35-40°, dağlarda gecə 14-19°, gündüz 25-30° isti olacaq.

*Q. QASIMOV, “Xalq qəzeti”*

# Qəbələdə yanğın söndürülüb

**Qəbələ rayonu, Solquca kəndi yaxınlığında mürəkkəb relyefli dağlıq ərazidəki yanğın tam söndürülüb. Bu barədə Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən məlumat verilib.**



Qeyd edək ki, yanğınsöndürmə əməliyyatlarında FHN-in Şimal-Qərb Regional Mərkəzinin və Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri, Aviasiya dəstəsinin helikopteri, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları və yerli sakinlər iştirak edib.

*Ceyran CƏFƏRLİ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4857
SİFARİŞ 2063
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00